

Milli azadlıqdan
şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 fevral
2025-ci il,
çərşənbə axşamı
№ 034 (6862)
Qiymәti
60 qəpik



# Regional sabitliyin mühüm meyarı

## İlham Əliyev: Pakistan bizim üçün ən yaxın dost və qardaşlardan biridir

## Məhəmməd Şahbaz Şərif: Bu gün biz hədəfə çatdıq

Bax səh. 2

# YAP nümayəndə heyəti AK Partinin VIII Böyük Qurultayında iştirak edib

Bax səh. 3







# ABŞ 55 illik strategiyaya geri qayıdır...

Bax səh. 6

## Qeyri-neft gəlirləri riskləri aradan qaldırır

Dünyanın nüfuzlu institutlarından olan "Fitch Solutions" qlobal iqtisadiyatla bağlı açıqladığı yeni hesabatda Azərbaycan üzrə iqtisadi artım proqnozunu dəyişməz saxlayıb. Təşkilatın ehtimallarına əsasən, 2025-ci ildə ölkəmizdə iqtisadi artım tempi 2,6 faiz, 2026-cı ildə isə 3,2 faiz səviyyəsində olacaq.
2027-ci ildə isə ölkəmizdə real ümumi daxili məhsul (ÜDM) üzrə proqnoz 3,1 faizdən 3,2 faizə qaldırılıb. "Fitch Solutions"in qlobal bazar üzrə analitiklərinin qənaətinə görə, Azərbaycanda ÜDM-in təxminən 50 faizini neft sektoru təşkil etsə də, son illərdə qeyri-neft sektoru iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevrilib. Bu amil ölkə iqtisadiyyatı üçün riskləri aradan qaldırır.

**Dövlət-özəl sərmayələri ümumi iqtisadi artımı böyüdür**

"Fitch Solutions" ailəsinə daxil olan "Fitch Ratings"in baş direktoru Erik Arispe bildirib ki, Azərbaycanda neft sektorunda son illərdə azalmanın müşahidə edilməsi bu sektordan daxil olan gəlirləri də kiçildir, qlobal bazarlarda gözlənilən situasiyalar qarşıdakı dövrdə neft satışı üzrə fiskal yığımları bir qədər də azalda bilər. Ancaq buna baxmayaraq, Azərbaycanın qaz hasilatında son illərdə əhəmiyyətli artımlar müşahidə olunur ki, bu, 2025-ci ildə və növbəti illərdə də davam edəcək. Nəticədə hasilatın yüksəlməsi neft gəlirlərinin azalan həcmlərini kompensasiya edəcək...

Bax səh. 4

## Vaşinqtonun "sülh planı"...

ABŞ prezidenti Donald Tramp Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı razılaşmanın tezliklə əldə olunacağına ümid edir, Ağ Evin mətbuat katibi Karoline Livitt şənbə günü açıqlamasında bildirib ki, Prezident və onun komandası münaqişəni sona çatdırmaq üçün müharibənin hər iki tərəfi ilə danışıqları davam etdirməyə diqqət yetirir. O qeyd edib ki, Tramp nizamlanmaya bu həftə nail olunacağına çox əmindir. Livitt Trampın bunu necə planlaşdırdığı barədə heç bir təfərrüat verməyib. "Tramp Rusiyanın razılaşmaya hazır olduğuna inanır və o, razılaşma əldə etmək üçün mübarizə aparır. Milli təhlükəsizlik üzrə müşavir...

Bax səh. 5

## Biz köhnə cənnətimizə qarşı təhdid hiss etdikdə canlanırıq

**- Aqşin bəy, hazırda nə yazırsız, nə üzərində işləyirsiz?**

- "Ədibin Evi"nin təşəbbüsü və sifarişiylə Bakı nefti haqqında roman üzərində işləyirəm. Araşdırma əsaslı bir romandır, yazmaqdan daha çox oxumaq tələb edir. "Əsrin müqaviləsi"nin 30 illiyinə həsr olunduğu üçün canlı şahidlərlə də söhbətlərim olur. Bakıda yunan-Roma çağından neftin varlığı bilinsə də, Azərbaycanın, əsasən, son iki əsrlik taleyi...

Bax səh. 7



## Kiyevin NATO-ya yolu bağlıdır

Bax səh. 5

## Təqaüdə çıxmazdan əvvəl...

Ölkəmizdə pensiya kapitalının müəyyən bir hissəsinin vətəndaşlara geri qaytarılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün kredit kimi istifadə edilməsi məsələsi son dövrlər əsas müzakirə mövzularından biridir. Bununla bağlı hökumətə müvafiq təkliflər təqdim edilib. Millət vəkili Vüqar Bayramov bildirib ki, təkliflərə əsasən, vətəndaşın fərdi hesabındakı pensiya kapitalının bir hissəsinin təqaüd yaşı tamam olmadan həmin kapitaldan yararlana bilmə imkanlarının yaradılmasıdır.

**Beynəlxalq təcrübə nə deyir?**

Qeyd edək ki, pensiya kapitalı dedikdə insanların fərdi şəxsi hesabın sığorta hissəsində qeydə alınan və hesabın yığım hissəsində toplanan vəsaitlərinin məbləği nəzərdə tutulur. Mövcud qanunvericiliyə görə, insanlar pensiya kapitalını götürə bilməzlər. Həmin kapital portfeli ancaq vətəndaş pensiyaya çıxdıqdan sonra pensiya məbləğinə əlavə edilməklə ödənilir. İnsanlar pensiya yaşına çatdıqdan sonra 12 il ərzində pensiya kapitalını əldə edə bilərlər. Belə ki, həmin kapital 144 aya bölünərək aylıq pensiya şəklində vətəndaşa geri qaytarılır. Yəni onlar pensiyaya çıxmadan bu vəsaitlərin bir manatını belə ala bilməzlər.

Hazırda dünyada pensiya-sığorta sistemində aparılan təkmilləşdirmələr, qeyri-dövlət pensiya fondlarının fəaliyyətinin və pensiya yığım alətlərindən maliyyə resursu kimi istifadənin genişlənməsi bir çox ölkədə...

Bax səh. 4



# Regional sabitliyin mühüm meyarı

## İlham Əliyev: Pakistan bizim üçün ən yaxın dost və qardaşlardan biridir

## Məhəmməd Şahbaz Şərif: Bu gün biz hədəfə çatdıq



Azərbaycan Respublikasına dövlət səfərinə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin fevralın 24-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşılayıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə təkbətək görüşü olub.

## Geniş tərkibdə görüş

Fevralın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə geniş tərkibdə görüşü olub.

Dövlətimizin başçısı görüşdə çıxış edərək qonaqları salamlayıb. Ölkəmizə dövlət səfərinə gəlmiş Məhəmməd Şahbaz Şərifi qəbul etməkdən çox məmnun olduğunu bildirən Prezident İlham Əliyev ötən il Pakistana dövlət səfərini xatırladıb.

“Əminəm ki, səfər ölkələrimiz arasında qardaşlıq əlaqələrini gücləndirəcək. Biz beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Bu gün çox geniş iqtisadi gündəliyi razılaşdırdıq və iqtisadi əməkdaşlığımıza, eləcə də sərmayə imkanlarına aid praktiki layihələri müzakirə etdik. Azərbaycanın Pakistana sərmayələri ilə bağlı imzalanacaq sənədlərin bir ay ərzində hazırlanması məqsədilə artıq öz heyətlərimizə fəal çalışmaq təlimatlarını verdik. Mənim Pakistana dövlət səfərim zamanı rəsmən bəyan etdim ki, Azərbaycan Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırmağa hazırdır” deyən dövlətimizin başçısı iki ölkə arasındakı münasibətlərdən söz açıb. Prezident qeyd edib ki, Pakistan ilə Azərbaycan arasında bu cür qardaşlıq münasibətlərini görmək iki qardaş müsəlman ölkəsi arasında tərəfdaşlığın yaxşı nümunəsidir: “Biz beynəlxalq təsisatlarda hər zaman bir-birimizi dəstəkləyirik, ölkələrimizin ərazi bütövlüyünə, suverenliyinə güclü dəstək veririk və qeyd etdiyim kimi, qarşımızda çox geniş sərmayə gündəliyi dayanır. Əminəm ki, bu gün əhatə edəcəyimiz bütün məsələlər, eləcə də bir çox digər sahələr üzrə işimiz Biznes Forumunda davam edəcək və aramızda daha sıx tərəfdaşlıq olacaq. Biz iqtisadi tərəfdaşlığımızı siyasi sahədəki səviyyəyə çatdırmalıyıq və bu, qarşılıqlı siyasi iradənin aydın təzahürünə çevriləcək”.



Sonra Pakistanın Baş naziri çıxış edib. Baş nazir Məhəmməd Şahbaz Şərif çıxışında dəvətə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib: “Burada - hər zaman yaşıl və gözəl Bakı şəhərindəyik. Lakin bu gün şəhər qar örtüyünə bürünüb və hətta daha gözəl görünür. Bu gözəllik mənə çox nəzakətli töhfənizi - İslamabadda yaşıllıq ekspertlərindən ibarət heyətinizi xatırladır. Onlar İslamabadın abadlaşdırılmasında əla iş görüblər və Əlhəmdülillah, şəhərimiz də gözəldir. Bununla belə, heyətinizin yanaşması çox əladır və bu jestə görə Sizə təşəkkürümü bildirirəm”.

Azərbaycan Prezidentinin Pakistana son səfərinin ikitərəfli əlaqələri böyük dərəcədə gücləndirdiyini bəyan edən Baş nazir bildirib: “Pakistan xalqı bu səfəriniz zamanı çox sevindi və məmnun oldu. Düşünürəm ki, Azərbaycan və Pakistan xalqlarının ürəyi bir döyünür. Mən bunu tam səmimi-qəlbdən söyləyirəm. Siz hər zaman Pakistanın böyük dostu olmusunuz. Siz Pakistan xalqını sevirsiniz.

Eyni zamanda, Pakistanın bütün hökumətlərini, ölkəmizin bütün siyasi partiyalarını ortaq məqsəd birləşdirir: bu, bizim Azərbaycanla, Sizinlə və Azərbaycan xalqı ilə olan dostluğumuz və qardaşlığımızdır. Mən çox istərdim ki, sabah Şuşaya səfər edim, lakin, bildiyiniz kimi, kəskin hava şəraiti var. Mən bu ilin iyulunda keçiriləcək konfransa gələn zaman həmin yerlərə məmnunluqla səfər edərdim. O vaxt biz həmin əsrarəngiz məkanları görə bilərik”.

## Sənədlərin imzalanması və mübadiləsi

Fevralın 24-də Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi olub.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə “Frontier Works Organisation” (FWO) və “Pakistan State Oil Company Limited” şirkəti arasında Anlaşma Memorandumu, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə “Pakistan Refinery Limited” (PRL) və “Pakistan State Oil Company Limited” şirkəti arasında Anlaşma Memorandumu, “SOCAR Trading SA” ilə “Pakistan LNG Limited” arasında mayeləşdirilmiş təbii qaz yüklərinin alqı-satqısı ilə bağlı Çərçivə Sazişinə 1 nömrəli Əlavə, “SOCAR Trading SA” ilə Pakistan İslam Respublikasının “Pakistan State Oil Company Limited” şirkəti arasında Anlaşma Memorandumu, “SOCAR Trading SA” ilə Pakistan İslam Respublikasının “Pakistan State Oil Company Limited” şirkəti arasında neft məhsullarının uzunmüddətli alqı-satqı Sazişi, “Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri və Pakistan İslam Respublikasının Pəncab Əyalətinin Lahor şəhəri arasında mədəniyyət, turizm, şəhərsalma, təhsil, elm, iqtisadiyyat və ictimai həyatın digər müvafiq sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu mübadilə edilib.

Qeyd edək ki, səfər çərçivəsində, həmçinin “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Pakistan İslam Respublikasının Federal Gəlirlər Şurasının Gömrük Xidməti arasında ilkin elektron məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Pakistan İslam Respublikasının İqlim Dəyişmələri və Ətraf Mühitin Koordinasiyası Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Niyyət Protokolu”, “Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə Pakistanın Milli Müdafiə Universiteti arasında elmi-tədqiqat və əməkdaşlıq fəaliyyətləri sahəsində Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə Pakistan İslam Respublikasının Milli Peşə və Texniki Təlim Komissiyası (NAVTTC) arasında peşə təhsili sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanıb.



## Əməkdaşlığımızın digər mühüm sektoru

İmzalanma və mübadilə mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif mətbuata bəyanatlarla çıxış ediblər.

Bəyanatla çıxış edən dövlətimizin başçısı dövri təmaslarımızın iki qardaş ölkə arasında daha sıx tərəfdaşlıq münasibətlərinə zəmin yaratdığından şad olduğunu söyləyib: “İki qardaş ölkə olaraq biz beynəlxalq münasibətlərin bütün məsələlərində bir-birimizə dəstəyi davam etdirəcəyik. Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk, beynəlxalq təsisatlarda fəal əməkdaşlıq edirik və iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik”.

Müzakirələrin nəzərəçarpan hissəsinin ticari və iqtisadi sektorlara həsr edildiyini bildirən Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət dövriyyəsinin cəmi bir neçə on milyonla ölçüldüyü ilə razı qalmadığını bəyan edib: “ Biz ticarət dövriyyəmizi artırmalıyıq və düşünürəm ki, bunu necə etməyi bilirik. Xüsusən də nəzərə alaq ki, ötən yay Pakistana dövlət səfərim zamanı bəyan etdiyim kimi, Azərbaycanın Pakistan iqtisadiyyatına iki milyard ABŞ dolları sərmayə yatırmaq planları var. Biz bir neçə ay əvvəl Pakistan tərəfindən konkret layihələri aldıq və Azərbaycan nümayəndələri onları hazırda qiymətləndirir”.

“Bu gün düşünürəm ki, qardaşımla birgə çox mühüm, eyni zamanda, çox realist hədəfləri müəyyən etdik: bir ay ərzində bütün müzakirələr yekunlaşsın və aprelin əvvəlində sənədlər imza üçün hazırlansın. Həmin layihələr həm infrastrukturun inkişaf sahələrini, həm energetika, mədən işi və ola bilsin, digər sahələri əhatə edir” - deyən dövlətimizin başçısı bildirib ki, Baş nazirin ölkəmizə səfəri zamanı imzalanmış sazişlərin sayı 10-dan artıqdır və onlar gələcək əməkdaşlıq üçün yaxşı bünövrə yaradacaq.

Prezident İlham Əliyev söyləyib ki, müzakirə edilən məsələlər arasında əsas hissə müdafiə, eləcə də müdafiə sənayesi sahələrində əməkdaşlığa həsr olunub: “Azərbaycan Pakistandan müdafiə sənayesinin istehsal etdiyi avadanlığı artıq alıb və biz onun keyfiyyətindən çox razıyıq və birmənalı olaraq, bu işi davam etdirəcəyik. Eyni zamanda, biz müdafiə sənayesi məhsullarının birgə istehsalı imkanlarını müzakirə etdik və bu, əməkdaşlığımızın digər mühüm sektoru olacaq. Bilirik ki, Pakistanın çox inkişaf etmiş müdafiə sənayesi var. Azərbaycan da öz potensialını inkişaf etdirir. Biz müdafiə sənayesinin məhsullarını artıq 30-dan çox ölkəyə ixrac edirik. Düşünürəm ki, birgə istehsal ilə təchizatımız - ixracyönümlü təchizatımız daha da artacaq”.



Bağlantı və daşımalarla bağlı müzakirələrdən söz açan dövlətimizin başçısı Azərbaycanın iştirak etdiyi Şimal-Cənub və ya Şərq-Qərb layihələri çərçivəsində imzalanmış razılaşmalar haqqında məlumat verdiyini söyləyib: “Əlbəttə ki, bu, bağlantı və daşımaların, iqtisadi inkişafın, o cümlədən siyasi sabitliyin mühüm elementidir. Bir-birinə yaxın yerləşən ölkələr bu cür çoxtərəfli əməkdaşlıq formatında iştirak etdiyi zaman vəziyyət bizim regionlarda daha proqnozlaşdırılan olur. Bu, həmçinin regional sabitliyin mühüm meyarıdır”.

Prezident bəyan edib ki, Pakistan bizim üçün ən yaxın dost və qardaşlardan biridir, xalqlar arasında əlaqələr də uğurla inkişaf edir. Dövlətimizin başçısı dövri əsaslarla uçuşların sayının artacağına əminliyini vurğulayıb.

## Strateji müdafiə sahəsində gözəl əlaqələrimizin daha yüksək səviyyəyə qaldırılmasının vaxtı çatıb

Sonra Pakistan İslam Respublikasının Baş naziri mətbuata bəyanatla çıxış etdi.

Baş nazir Məhəmməd Şahbaz Şərif bəyanatında bugünkü müzakirələrin çox məhsuldar və faydalı olduğunu bildirib. “Azərbaycanın Pakistanın birgə müəssisələrinə 2 milyard dollar sərmayə yatıracağını nəzərdə tutduğunuzu bəyan edəndə mən Sizə hədsiz dərəcədə minnətdar oldum” - deyən Baş nazir bildirib ki, bunlar qarşılıqlı faydalı investisiyalardır və hər iki ölkəyə dividendlər gətirir. Məhəmməd Şahbaz Şərif deyib: “İnşallah, aprel ayında, hər şey müzakirə edildikdən və qərar qəbul olunduqdan sonra mən bu 2 milyard dollar dəyərində razılıqları tamamlamaq üçün yenə də Sizi İslamabadda qəbul etməkdən böyük şərəf və sevinc hissi keçirəcəyəm”.

Bunun ticarət və investisiya münasibətlərimizdə ilk keyfiyyətli sıçrayış olacağını və qardaşlıq əlaqələrimizi əhəmiyyətli dərəcədə əks etdirəcəyini deyən Baş nazir vurğulayıb ki, bizim dostluğumuz, siyasi anlaşmamız, beynəlxalq səviyyədə, beynəlxalq forumlarda düşüncə və hərəkət vəhdətimiz əfsanəvi olmuşdur: “Lakin hesab edirəm ki, iş birliymiz, ticarətimiz, investisiya münasibətlərimiz bizim əlaqələrin həqiqi gücünü əks etdirmirdi. Hesab edirəm ki, bu gün biz bu hədəfə çatdıq və inşallah, bir aydan sonra biz həmin böyük qərarın həyata keçirilməsini qeyd edəcəyik”. Azərbaycan və Pakistanın beynəlxalq təşkilatlarda bir birini dəstəklədiyini bildirən Məhəmməd Şahbaz Şərif qlobal təhlükəsizlik, sülh və sabitliyin vacibliyinə toxunub.O, bildirib ki, ikidövlətli həll prinsipi əsasında Fələstin dövlətinin yaradılması məsələsində tam yekdillik var.

SOCAR və pakistanlı həmkarlar tərəfindən sıxılmış maye qaz razılaşmasının əlavə 2 il müddətinə uzadıldığını diqqətə çatdıran Baş nazir söyləyib ki, ölkələrimiz arasında strateji müdafiə sahəsində gözəl əlaqələrimizin daha yüksək səviyyəyə qaldırılmasının vaxtı çatıb: “Bizim müdafiə sahəsində birgə istehsal potensialımız olmalıdır. Bu, hər iki tərəfin öhdəliyinə düşür və aprel ayında Azərbaycan nümayəndə heyəti Pakistana səfər edəndə bu məsələ nümayəndə heyətinin gündəliyində başlıca prioritet təşkil edəcək”.

Bəyanatının sonunda Pakistanın Baş naziri səmimi qonaqpərvərliyə görə bir daha təşəkkürünü bildirib: “Siz qardaşsınız, biz bir ailə kimiyik. Mən apreldə təkcə Pakistan xalqının deyil, qardaş ölkə Azərbaycanın bütün guşələrində deyil, bütün dünyanın izləyəcəyi bu möhtəşəm tədbir və möhtəşəm imzalama mərasimi ilə bağlı Sizin Pakistana səfərinizi səbirsizliklə gözləyirəm. Bu, bizim nail olmalı və dərindən düşünməli olduğumuz məsələdir. Təkcə bu regionda deyil, bütün dünyada sülh, tərəqqi və çiçəklənmə olmalıdır. Bizim dostluğumuz, qardaşlığımız Ərəb dənizinin isti sularından Xəzər dənizinə kimi uzanır. Biz birgə səylərimizlə bunu möhkəmləndirəcəyik, gücləndirəcəyik və inşallah, bu qardaşlıq dünya var olduqca yaşayacaq”.




***

Fevralın 24-də Bakıda Azərbaycan-Pakistan biznes forumu keçirilib.

Azərbaycan Prezidenti İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif biznes-forumda çıxış ediblər.

***

Sonra “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin şərəfinə dövlət ziyafəti verilib.

Ziyafətdə Azərbaycan və Pakistan musiqilərindən ibarət konsert proqramı təqdim olunub.



# YAP nümayəndə heyəti AK Partinin VIII Böyük Qurultayında iştirak edib
















18 ölkədən 22 siyasi partiyanın nümayəndələrinin, Türkiyədə akkreditə olunmuş diplomatik missiya rəhbərlərinin və vətəndaş cəmiyyəti təmsilçilərinin də iştirak etdikləri qurultayda Azərbaycanı Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi və Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovun daxil olduğu nümayəndə heyəti təmsil edib.

Qurultaydan öncə fevralın 22-də Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz və AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini Zafer Sırakayanın salamlama nitqlərindən sonra AK Parti tərəfindən xarici qonaqların və diplomatik missiya rəhbərlərinin şərəfinə rəsmi ziyafət verilib.

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) VIII Böyük Qurultayı Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə fevralın 23-də Ankara İdman Sarayında keçirilib.

Türkiyə Prezidenti çıxışı zamanı AK Partinin zəngin və şərəfli inkişaf yolu keçdiyini, xalqın etimadını layiqincə doğrultduğunu vurğulayıb. O, məqsədyönlü daxili və xarici siyasət nəticəsində qazanılan uğurlara nəzər salıb və qarşıda duran hədəfləri diqqətə çatdırıb. Dövlət başçısı iqtisadi inkişafın təmin olunması, xalqın rifahının yüksəldilməsi, milli və regional təhlükəsizliyə təhdidlərə qarşı qətiyyətli mübarizə aparılması, dövlətin beynəlxalq mövqeyinin möhkəmləndirilməsi kimi məsələlərə toxunaraq müəyyən olunmuş bütün vəzifələrin müvəffəqiyyətlə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

Qurultayın həm Türkiyə Respublikası, həm də AK Parti üçün xüsusi önəm daşıdığını bildirən Prezident Rəcəb Tayyib Ərdoğan yeni tarixi mərhələnin növbəti uğurlara və parlaq perspektivlərə yol açdığını söyləyərək gələcəyə yönəlik planların gerçəkləşdirilməsi üçün partiya nümayəndələrinin üzərinə böyük məsuliyyət və mühüm vəzifələrin düşdüyünü vurğulayıb.

Qurultayda Prezident Rəcəb Tayyib Ərdoğan yenidən yekdilliklə Ədalət və İnkişaf Partiyasının Sədri seçilib, səsvermə nəticəsində partiyanın rəhbər strukturlarının yeni tərkibi müəyyənləşib.

Səfər çərçivəsində fevralın 24-də YAP Sədrinin müavini Tahir Budaqov ilə AK Parti Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Ala və xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya arasında görüşlər də keçirilib.

Dəvətə və yüksək qonaqpərvərliyə görə rəhbərlik etdiyi nümayəndə heyəti adından təşəkkürünü bildirən Tahir Budaqov AK Partinin VIII Böyük Qurultayının uğurla baş tutması və Efkan Alanın AK Parti Sədrinin birinci müavini, Zafer Sırakayanın isə partiya Sədrinin xarici əlaqələr üzrə müavini vəzifələrinə yenidən seçilmələri münasibətilə onları təbrik edib və bundan sonrakı fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Tahir Budaqov AK Partinin iqtidarda olduğu son 22 ildə reallaşdırılan möhtəşəm layihələr və qazanılan uğurlar nəticəsində Türkiyə dövlətinin güc və nüfuzunun xeyli artdığını bildirərək Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş ölkənin bütün milli məqsədlərinin müvəffəqiyyətlə həyata keçiriləcəyinə inamını ifadə edib.

Görüşlər zamanı "bir millət, iki dövlət" prinsipinə, dostluğa, qardaşlığa və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində ən yüksək səviyyəyə çatdığı bildirilib, beynəlxalq platformalarda qarşılıqlı fəaliyyətin milli maraqların təmini və müştərək hədəflərin gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıdığı diqqətə çatdırılıb.

2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin istər Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı, istərsə də regionda və daha geniş miqyasda sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin yaranması - yeni geosiyasi nizamın formalaşması baxımından böyük əhəmiyyətə malik olduğu vurğulanıb.

Azərbaycan-Türkiyə birliyinin Türk dünyasında da rifah və tərəqqiyə xidmət etdiyi, genişmiqyaslı və səmərəli birgə fəaliyyətin Türk Dövlətləri Təşkilatının (TDT) qlobal miqyasda güc mərkəzinə çevrilməsinə hədəfləndiyi söylənib. Vurğulanıb ki, TDT-nin müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi hər iki dövlət üçün mühüm prioritetdir və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirilir.

Görüşlər zamanı dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq hakim partiyalar arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımların atıldığı diqqətə çatdırılıb. Qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı baxımından son dərəcə vacib olduğu bildirilərək 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələn vəzifələrin uğurla icra olunduğu və hazırda partiyalararası münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi məmnunluqla qeyd edilib, bundan sonra da birgə hərəkət edərək ümumi hədəflərin inamla reallaşdırılacağına əminlik ifadə olunub.

Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparılıb.















# 44 günlük savaşda qisasımız alındı!

## Xocalı həqiqətlərini dünyaya çatdırmalıyıq...

**Ermənilər hər zaman Azərbaycan torpaqlarına yiyələnməyə, tariximizi, mədəniyyətimizi mənimsəməyə cəhd ediblər. Erməni təcavüzü qədim Azərbaycan torpaqlarının, ilk növbədə Qərbi azərbaycanlıların zaman-zaman köçürülməsi, 1918-ci ildə Bakı və ətraf rayonlarda mart qırğınlarının törədilməsi ilə baş verib. Həmin dövrlərdə xalqımıza qarşı min bir vəhşilik törədilib. Bu vəhşiliklər 1988-ci il Birinci Qarabağ müharibəsindən sonra daha da qızğın forma alıb. Müharibədə 30 minə qədər hərbçi və mülki vətəndaşımızı itirdik. Xocalı, Meşəli, Ağdaban faciəsi bu gün dünya tarixində ən qara səhifələrdən hesab edilə bilər.**

### Dünya mətbuatı təsdiqlədi, amma...

Xalqımızın yaddaşında ömürlük həkk olunan Xocalı soyqırımının 33-cü ildönümü ərəfəsində ermənilərin insanlıq əleyhinə törətdiyi cinayətləri xatırlayaq - Ermənistan silahlı qüvvələri fevralın 25-dən 26-na keçən gecə Xankəndidə yerləşdirilmiş, tərkibi əsasən erməni əsgər və zabitlərindən ibarət olan 366-cı alayın yaxından köməyi və iştirakı ilə Xocalıya daxil oldu. Məlumdur ki, beynəlxalq hüquq və qanunlara görə, soyqırımı və genosid etnik, irqi, dini və ya milli qrupun düşünülmüş, sistematik şəkildə tam ya da qismən məhv edilməsi, kütləvi şiddət formasıdır.




Xocalı soyqırımını bütün dünya mətbuatı təsdiqlədi: "Vaşinqton post", "Tayms", "İzvestiya", "Le Mond" və digər mətbu orqanları bu soyqırımı- erməni faşizminin qəddarlığını şahidlərin gözü ilə təsvir etdilər. Amma qatillər cəzalandırılmadılar, əksinə, torpaqlarımızın işğalını daha da genişləndirdilər. Tarixi şərait və erməni təəssübkeşliyi səbəbindən xalqımızın faciələrinə beynəlxalq səviyyədə obyektiv qiymət vermək mümkün olmadı. O cümlədən Xocalı faciəsinə də ikili standartlara və Azərbaycan torpaqlarının işğalına beynəlxalq təşkilatların laqeyd münasibətinə görə, uzun illər siyasi-hüquqi qiymət verilmədi. Buna baxmayaraq, Azərbaycan Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl iş apardı. Bu məsələdə İlham Əliyevin müəyyən etdiyi diplomatiyanın həyata keçirilməsi tezliklə effektiv nəticələr verdi.

Xatırladaq ki, ölkə başçısı Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyi barədə demişdi: "Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır!".

### "Xocalıya ədalət!"

Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilib. 2008-ci ildən bu fəaliyyət "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə geniş vüsət alıb. Hazırda Xocalı soyqırımı bəzi ölkələr tərəfindən tanınıb və faciəyə beynəlxalq siyasi qiymət verilib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti üzrə hazırlanmışdır**

### Qətlə yetirilən soydaşlarımızın ruhu rahatdır!

Bu gün qanında, canında Vətən sevgisi olan hər bir azərbaycanlının qarşısında duran ən əsas vəzifələrdən biri dövlətimizin bu istiqamətdə həyata keçirdiyi işlərə dəstək verərək, Xocalı soyqırımı barədə həqiqətləri təbliğ etməkdir.

33 il müddətində bu soyqırımının yanğısı ilə yaşadıq, intiqam, döyüş, cəsarət, qeyrət bayrağını ucaldıb cavab verəcəyimiz günü gözlədik. O anın yetişəcəyinə inandıq. 44 günlük Vətən savaşındakı zəfər nəticəsində Xocalı soyqırımına məruz qalmış vətəndaşlarımızın ruhları rahatlıq tapdı. Torpaqlarımızın azad olunması ilə nəticələnən İkinci Qarabağ müharibəsi həm də xalqımızın qisas tarixi oldu. Ermənilərin müxtəlif zamanlarda, o cümlədən 33 il əvvəl Xocalıda qətlə yetirdikləri soydaşlarımızın ruhları indi rahatdır!

*Yeganə BAYRAMOVA*

# Qeyri-neft gəlirləri riskləri aradan qaldırır

## "Fitch Solutions"un Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozları ümidvericidir

Dünyanın nüfuzlu institutlarından olan "Fitch Solutions" qlobal iqtisadiyyatla bağlı açıqladığı yeni hesabatda Azərbaycan üzrə iqtisadi artım proqnozunu dəyişməz saxlayıb. Təşkilatın ehtimallarına əsasən, 2025-ci ildə ölkəmizdə iqtisadi artım tempi 2,6 faiz, 2026-cı ildə isə 3,2 faiz səviyyəsində olacaq. 2027-ci ildə isə ölkəmizdə real ümumi daxili məhsul (ÜDM) üzrə proqnoz 3,1 faizdən 3,2 faizə qaldırılıb. "Fitch Solutions"in qlobal bazar üzrə analitiklərinin qənaətinə görə, Azərbaycanda ÜDM-in təxminən 50 faizini neft sektoru təşkil etsə də, son illərdə qeyri-neft sektoru iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevrilib. Bu amil ölkə iqtisadiyyatı üçün riskləri aradan qaldırır.

### Dövlət-özəl sərmayələri ümumi iqtisadi artımı böyüdür

"Fitch Solutions" ailəsinə daxil olan "Fitch Ratings"in baş direktoru Erik Arispe bildirib ki, Azərbaycanda neft sektorunda son illərdə azalmanın müşahidə edilməsi bu sektordan daxil olan gəlirləri də kiçildir, qlobal bazarlarda gözlənilən situasiyalar qarşıdakı dövrdə neft satışı üzrə fiskal yığımları bir qədər də azalda bilər. Ancaq buna baxmayaraq, Azərbaycanın qaz hasilatında son illərdə əhəmiyyətli artımlar müşahidə olunur ki, bu, 2025-ci ildə və növbəti illərdə də davam edəcək. Nəticədə hasilatın yüksəlməsi neft gəlirlərinin azalan həcmlərini kompensasiya edəcək.

E. Arispe bildirib ki, Azərbaycan iqtisadiyyatında nəzərə çarpan yeni dinamika əsas etibarilə iqtisadiyyatın şaxələndirilməsi və müasir sənayeləşməyə əsaslanır. Son illərdə dövlətin maliyyəsi ilə yanaşı, özəl sektorun və xarici sərmayədarların dayanıqlı maliyyə qoyuluşları hesabına ümumi iqtisadi artım böyüməkdədir.

Digər iqtisadi qurumun - "Moody's Ratings" beynəlxalq reytinq agentliyinin analitikləri isə hesab edirlər ki, Azərbaycan iqtisadiyyatı ümumdünya göstəricisindən (2,5-3 faiz) daha yuxarı templə böyüyür. 2024-cü ildə Azərbaycanda ÜDM-nin 4,1 faiz artması da bunu təsdiqləyir. Dinamika sabit qalacaq və 2025-ci ilin sonunda təxminən 4 faiz artım gözlənilir.

### Valyuta Fondu daha nikbin proqnozlar irəli sürüb

Niderlandın "ING" təşkilatının bir müddət əvvəl açıqladığı qlobal hesabatda isə ölkəmizdə ÜDM-nin 3-3,5 faiz nisbətində olacağı əksini tapıb. Asiya İnkişaf Bankının ötən ilin sonlarında açıqladığı "Asian Development Outlook" icmalında isə Azərbaycanda ÜDM-in cari il üzrə illik artım proqnozu 4-4,2 faiz intervalında qərarlaşdırılıb.

Beynəlxalq Valyuta Fondunun "World Economic Outlook" hesabatında Azərbaycanda 2025-ci ildə iqtisadi artımın 4 faiz təşkil edəcəyi ehtimal olunur. Fondun, həmçinin ötən il dərc etdiyi "Regional iqtisadiyyatın inkişaf perspektivləri" adlı yeni hesabatında 2025-2028-ci illərdə Azərbaycan iqtisadiyyatının orta illik artım tempinin 3,5-4 faiz olacağı fərz edilir.



Dünya Bankının (DB) qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnozxülasəsində vurğulanır ki, böyük həcmdə dövlət investisiyaları sayəsində hazırda əlavə dəyərin həcmi davamlı şəkildə böyüyür. Bu faktorun 2025-ci ildə ÜDM-in 3,9 faizi ötməsində əsaslı rol oyanayacağı vurğulanır.

Azərbaycan hökumətinin makroiqtisadi proqnozları da yuxarıda adları çəkilən təşkilatların əksəriyyətinin gözləntilərinə uyğundur. Belə ki, İqtisadiyyat Nazirliyinin 2025-ci il üzrə artım proqnozu 3,5 faiz, Mərkəzi Bankın ehtimalları isə 3,3 faiz nisbətində müəyyənləşib. Hökumətin açıqladığı Ortamüddətli Xərclər Çərçivəsi sənədinə əsasən, 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-nin həcmi 92,2 milyard manat təşkil edəcək. Milli məhsulda neft sektorunun payı 28,6 faiz, qeyri-neft-qaz ÜDM-nin payı isə 71,4 faiz ehtimal edilir. 2026-cı ildə ÜDM-in həcmi 133,8 milyard manata, qeyri-neft ÜDM-nin həcmi isə 100 milyard manata çatacaq. 2027-ci ildə ÜDM 142,9 milyard manat, o cümlədən qeyri-neft sektoru üzrə əlavə dəyərin həcmi 108,3 milyard manata bərabər olacaq. 2028-ci ildə isə ÜDM-in cəmi dəyəri 150,8 milyard manata çatacaq ki, onun 117,2 milyard manatının və ya 77,7 faizinin qeyri-neft ÜDM-i olacağı fərz edilir. Beləliklə,

### Hökumətin Ortamüddətli dövr üzrə proqnozları

ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,35 faiz, qeyri-neft-qaz ÜDM-nin artım tempinin isə 5 faiz olacağı proqnozlaşdırılır.

Ölkədə iqtisadi inkişafın sosial sahələrə də təsirləri əhəmiyyətli dərəcədə nüfuz edəcəyi gözlənilir. Belə ki, ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2028-ci ildə 112,5 milyard manata, xərclərinin isə 107,9 milyard manata qədər yüksəlməsi gözlənilir. Orta aylıq əməkhaqqının nominal həcmi 2025-ci ildə 1080 manat, 2026-cı ildə 1156 manat, 2027-ci ildə 1237 manat, 2028-ci ildə isə 1327 manat təşkil edəcək.

*ELBRUS CƏFƏRLİ*

# Təqaüdə çıxmazdan əvvəl...

## Kredit, biznes sərmayəsi və digər məqsədlər üçün pensiya kapitalından istifadə etmək mümkün ola bilər

Ölkəmizdə pensiya kapitalının müəyyən bir hissəsinin vətəndaşlara geri qaytarılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün kredit kimi istifadə edilməsi məsələsi son dövrlər əsas müzakirə mövzularından biridir. Bununla bağlı hökumətə müvafiq təkliflər təqdim edilib. Millət vəkili Vüqar Bayramov bildirib ki, təkliflərə əsasən, vətəndaşın fərdi hesabındakı pensiya kapitalının bir hissəsinin təqaüd yaşı tamam olmadan həmin kapitaldan yararlana bilmə imkanlarının yaradılmasıdır.

### Beynəlxalq təcrübə nə deyir?

Qeyd edək ki, pensiya kapitalı dedikdə insanların fərdi şəxsi hesabın sığorta hissəsində qeydə alınan və hesabın yığım hissəsində toplanan vəsaitlərinin məbləği nəzərdə tutulur. Mövcud qanunvericiliyə görə, insanlar pensiya kapitalını götürə bilməzlər. Həmin kapital portfeli ancaq vətəndaş pensiyaya çıxdıqdan sonra pensiya məbləğinə əlavə edilməklə ödənilir. İnsanlar pensiya yaşına çatdıqdan sonra 12 il ərzində pensiya kapitalını əldə edə bilərlər. Belə ki, həmin kapital 144 aya bölünərək aylıq pensiya şəklində vətəndaşa geri qaytarılır. Yəni onlar pensiyaya çıxmadan bu vəsaitlərin bir manatını belə ala bilməzlər.

Hazırda dünyada pensiya-sığorta sistemində aparılan təkmilləşdirmələr, qeyri-dövlət pensiya fondlarının fəaliyyətinin və pensiya yığım alətlərindən maliyyə resursu kimi istifadənin genişlənməsi bir çox ölkədə pensiya kapitalı ilə bağlı yeni modellərin tətbiqini reallaşdırıb.

Təqaüd kapitalı fondundan istifadə bir sıra ölkələrdə mövcuddur. Belə ki, Sinqapur, ABŞ və bəzi ölkələrdə mövcud olan modelə əsasən, vətəndaşlar pensiya yaşına çatmadan öz fərdi hesabarında toplanan vəsaitin müəyyən bir hissəsini, təxminən 40-50 faizi biznes, təsərrüfat və s. sahələrdə investisiya məqsədilə istifadə etmək hüququna malikdirlər. Onların kapitalındakı vəsaitlər bank hesablarına ödənilir. Həmin şəxslər bu vəsaitləri istehlaka yönəldə bilməz, yalnız ölkənin inkişafına töhfə verən iqtisadi xarakterli layihələr üçün istifadə edirlər.

Azərbaycanda da eyni modelin tətbiqi təklif olunur, vətəndaşların böyük bir hissəsi pensiya kapitalından pensiyaya çıxmazdan əvvəl yararlanmaq istəyir.

### Yeni modelin hansı üstünlükləri var?

V.Bayramov hesab edir ki, pensiya kapitalının bir hissəsindən istifadə imkanlarının yaradılması vətəndaşın iqtisadi-sosial təminatlarında əhəmiyyətli dəstək rolunu oynaya bilər. Belə ki, həmin vəsaitə sahib olan şəxs üçün kredit borcunun ödənilməsi, təhsil və səhiyyə xidmətləri ilə bağlı ehtiyaclarının qarşılanması, digər zəruri təminatlarla bağlı etibarlı mənbə formalaşmış olur. Yaxud, insanlar kiçik biznes, ailə təsərrüfatları, məşğulluq imkanlarını təmin etmək və s. məqsədlər üçün tələb olunan maliyyə resurslarına görə, banklara müraciət etmək məcburiyyətində qalmazlar. Onlar bu kapitaldan səmərəli və düzgün istifadə etməklə bir növ uzunmüddətli kredit resursu formalaşdırmış olur, həmin vəsaitlər habelə sərmayə kimi biznes layihələrinin artırılmasında da təminatlı mənbə ola bilər.

Pensiya kapitalından istifadə həm də sosial məzmun kəsb etmiş olur. Belə ki, həmin vəsaitlərə çıxış əldə edən şəxslərin yaratdığı kiçik ailə təsərrüfatları, mikrobiznes subyektləri işsiz olan ailə üzvlərinin məşğulluğunun təmin olunması, sosial vəziyyətinin yaxşılaşması üçün də əhəmiyyət kəsb edir.



### Qeyri-leqal əmək bazarı tam leqallaşa bilər

Bu modelin ən mühüm müsbət nəticələrindən biri ölkədə rəsmi məşğulluğun səviyyəsinin artması, qeyri-leqal əmək bazarının leqallaşdırılması, ikili mühasibatlıq halları olan sahələrdə şəffaflığın təmin olunmasıdır. Belə ki, pensiya kapitalı fonduna toplanan hər manatın dəyərinə xüsusi önəm verən hər bir işçi işəgötürən qarşısında onun aylıq əməkhaqqı və ya gəlirlərinin tamamilə leqal olmasını, eləcə də müəssisənin aylıq sosial ödənişlərinin sənədlərdə dürüst əks etdirilməsini tələb edəcək. Çünki, onun pensiya kapitalı fonduna daha çox vəsaitin toplanması yığım portfelinin böyüməsinə səbəb olmaqla, kapitalının bir hissəsini istifadə edərkən əhəmiyyətli resursa sahib olması imkanını da yaxşılaşdıracaq.

Yeni modelin tətbiqi üçün pensiya qanunvericliyində müvafiq dəyişikliklər edilməlidir. Bu istiqamətdə hazırlanan təkliflərin müvafiq instansiyalarda təsdiq edildikdən sonra pensiya kapitalından istifadə mümkün ola bilər.

*E.CƏFƏRLİ*

# Vaşinqtonun “sülh planı”...

## Tramp bu həftə müharibəni yekunlaşdıracaqmı?
## Vaşinqtonun fond tələbi Kiyevin maraqları ilə uzlaşmır...

ABŞ prezidenti Donald Tramp Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı razılaşmanın tezliklə əldə olunacağına ümid edir, Ağ Evin mətbuat katibi Karoline Livitt şənbə günü açıqlamasında bildirib ki, Prezident və onun komandası münaqişəni sona çatdırmaq üçün müharibənin hər iki tərəfi ilə danışıqları davam etdirməyə diqqət yetirir. O qeyd edib ki, Tramp nizamlanmaya bu həftə nail olunacağına çox əmindir. Livitt Trampın bunu necə planlaşdırdığı barədə heç bir təfərrüat verməyib. “Tramp Rusiyanın razılaşmaya hazır olduğuna inanır və o, razılaşma əldə etmək üçün mübarizə aparır. Milli təhlükəsizlik üzrə müşavir Mayk Vals həftə sonu razılığa gəlmək və Ukraynadakı münaqişəyə son qoymaq üçün gecə-gündüz işləyəcək. Prezident deyib ki, o, döyüşlərin və günahsız insanların ölməsinin dayandırılmasını və sülh istəyir”, - deyə Ağ Evin sözçüsü əlavə edib.

### ABŞ 500 milyard deyir - Ukrayna 100 milyarda razıdır...

Qeyd edək ki, ABŞ münaqişənin dayandırılmasında prinsipial mövqe nümayiş etdirir. “The New York Times” yazıb ki, fevralın 21-də ABŞ hökuməti Zelenskinin əvvəllər rədd etdiyi təbii sərvətlər müqaviləsinin daha sərt variantını Ukraynaya təhvil verib. Yeni variant ABŞ-a hətta mineral sərvətlərin hüquqlarını əldə etmək imkanını özündə ehtiva edir. Həmçinin KİV-in məlumatına görə, Amerika hakimiyyəti sazişin yeni versiyasında qaytarılması nəzərdə tutulan məbləğin 500 milyard dollar olacağı şərtləndirilib - bu, Amerikanın Ukraynaya hərbi və maliyyə yardımı ilə bağlı xərclərinə görə Trampın almaq istədiyi kompensasiyanın dəqiq məbləğidir.

“Bloomberg”ə adının açıqlanmasını istəməyən və danışıqlardan xəbəri olan ukraynalı rəsmi bildirib ki, Ukrayna hakimiyyəti ABŞ-ın 500 milyard dollarlıq birgə fond yaratmaq tələbinə qarşı çıxıb. Onun sözlərinə görə, sazişin yeni variantında ABŞ-ın gələcək hərbi və maliyyə yardımı ilə bağlı zəmanətlər barədə heç nə yoxdur. Mənbə qeyd edib ki, Ukrayna 5 dəfə az - təxminən 90 milyard dollar məbləğlə razılaşır. Ukrayna Radio NV-dən olan bir mənbə də analoji məbləğ barədə məlumat verib: “Biz ABŞ-ın təklifini 100 milyard dollara endirib onu Prezident Trampın xüsusi elçisi Keyt Kelloqa təhvil verdik”.

Ukrayna prezidentinin aparatının rəhbərinin müşaviri Mixaylo Podolyak isə deyib ki, mineral ehtiyatlar üzrə saziş yaxın vaxtlarda imzalanacaq. “Müqavilə müxtəlif səviyyələrdə kifayət qədər hərtərəfli müzakirə olunur, işçi qruplar yaradılıb. Onun nə vaxt imzalanacağı, əlbəttə ki, yaxın gələcəyin işidir”, - Podolyak bildirib.

### Aİ yenə də “cığallıq” edir...

Sülh müqaviləsi ilə bağlı Aİ-nin mövqeyi isə fərqlidir. “The Wall Street Journal” öz mənbələrinə istinadən yazır ki, Avropa liderləri Moskva və Kiyevin atəşkəslə bağlı razılığa gələcəyi təqdirdə 30 min avropalı sülhməramlının Ukraynada yerləşdirilməsi planını müvafiq olaraq Trampa təqdim edəcək. Nəşrin yazdığına görə, Makron ABŞ-ı Ukraynadakı Avropa qoşunlarının Rusiya tərəfindən təhdid ediləcəyi təqdirdə “cavab zərbəsi” üçün bəzi Amerika qoşunlarını göndərməyə



inandırmağa çalışacaq. Hazırlanmaqda olan Avropa planına əsasən ABŞ Ukraynaya öz qüvvələrini yerləşdirməyə də bilər - Tramp isə buna qarşı çıxır. Vurğulayaq ki, müharibənin min altmış altıncı günüdür və sülh ilə bağlı danışıqlar müxtəlif variantlar üzrə davam edir.

### İstanbul razılaşması - plana davam...

Yeni mərhələdə Türkiyənin prosesdə iştirakı labüdləşir. Son zamanlar Ankaranın aktiv şəkildə prosesə qoşulması onu göstərir ki, Vaşinqton sülh planında məhz həm Ukrayna, həm də Rusiya tərəfindən qəbul edilən Ankaraya ehtiyac duyur. Türkiyəyə edilən səfərlər (Zelenski və Lavrov), Vaşinqtonun Türkiyə ilə bağlı bəyanatları bu faktı təsdiqləyir. Hətta sülhün 2022-ci ildə əldə edilmiş İstanbul razılaşmasının prinsipləri üzrə aparılması ehtimalı da güclüdür. Xatırladaq ki, 2022-ci ilin mart ayında İstanbulda keçirilən danışıqlar zamanı Rusiya və Ukrayna nümayəndələri münaqişənin diplomatik həlli üçün ilkin razılaşma üzərində müzakirələr aparmışdılar. Görüş Türkiyənin vasitəçiliyi ilə təşkil olunmuşdu və əsas məqsəd döyüşləri dayandıracaq bir çərçivə yaratmaq idi. İstanbul Razılaşmasının Əsas Prinsipləri isə

- Neytral və Bloksuz Ukrayna formalaşdırmıq - Ukrayna NATO-ya qoşulmamaq və neytral status saxlamaq öhdəliyini götürə bilərdi. Buna qarşılıq olaraq, təhlükəsizliyinə beynəlxalq zəmanətlər verilməli idi;
- Krım və Donbas məsələsinin həlli: Krımın statusu üzrə 15 illik danışıqlar aparılması təklif olunurdu. Donbas bölgəsinin gələcəyi isə diplomatik yolla həll edilməli idi;
- Rusiya qoşunlarının geri çəkilməsinin təmini: Rusiya Ukraynanın bəzi ərazilərindən çıxmalı idi;
- Ukraynanın silahsızlaşdırılması və təhlükəsizlik təminatının verilməsi: Ukraynanın ağır silah sistemlərindən məhrum edilməsi qarşılığında ABŞ, Böyük Britaniya və Türkiyə kimi ölkələr tərəfindən təhlükəsizliyinə zəmanət verilə bilərdi.

Razılaşma ilkin mərhələdə ümidverici görünürdü və hətta Rusiya tərəfi Kiyev ətrafındakı qoşunlarını qismən geri çəkməyə başladı. Lakin sonradan Qərb dövlətlərinin Ukraynanı döyüşləri davam etdirməyə təşviq etməsi və Rusiyaya etimadsızlıq bu planın reallaşmasına mane oldu. Nəticədə müharibə davam etdi və diplomatik həll şansı itdi. Yeni mərhələdə isə Tramp bu “planı” qaldığı nöqtədən inkişaf etdirə bilər...

*P.SADAYOĞLU*

# Kiyevin NATO-ya yolu bağlıdır

## İllər öncə Ukraynaya vəd verilsə də, hələ namizədlik statusunu da ala bilməyib

Rusiya-Ukrayna müharibəsinin başlanmasının üç ili arxada qaldı. Bu dövr ərzində hər iki tərəf ağır itkilər verib. Hazırda isə müharibənin tezliklə başa çatması ilə bağlı ümidlər artıb. Belə ki, yanvar ayında vəzifəsinə başlayan ABŞ-ın yeni dövlət başçısı Trampın əsas hədəflərindən biri qısa müddət ərzində Rusiya-Ukrayna müharibəsində sülhün əldə olunmasıdır. Tramp sülh üçün Ukraynada prezident seçkilərinin keçirilməsinin vacibliyini deyib və Zelenskini “diktator” adlandırmaqdan çəkinməyib. Nəzərə alaq ki, müharibə səbəbindən Ukraynada prezident seçkilərinin keçirilməsi təxirə salınıb.

**Zelenski NATO-ya üzvlük naminə istefa verməyə hazırdır**

Lakin rəsmi Kiyev Trampın sülh planına birmənalı mövqe bildirmir. Hələ ki, Ukrayna hökuməti sülh üçün öz istəklərinin də qəbul olunmasına çalışır. Bu məqsədlər arasında NATO-ya üzvlük əsas yer tutur. Zelenski Ukrayna üçün sülh müqabilində vəzifəsindən istefa verməyə hazır olduğunu açıqlayıb. O, bu fikirlərini Rusiya-Ukrayna münaqişəsinin başlanmasının üçüncü ildönümünə dair mətbuat konfransında söyləyib. “Əgər sülh Ukrayna üçündürsə və həqiqətən də vəzifəmi tərk etməyimə ehtiyac varsa, mən hazıram. Vəzifəmi Ukraynanın NATO-ya üzvlüyü müqabilində də dərhal dəyişə bilərəm”, - deyə Zelenski jurnalistlərin sualına cavab olaraq bildirib.

Zelenski, həmçinin ABŞ Prezidenti Trampın münaqişənin ədalətli həllinə çalışdığna inandığını söyləyib: “Ukrayna münaqişənin həllində tərəfdaşlarından, o cümlədən ABŞ-dan güclü təhlükəsizlik zəmanəti istəyir”. Zelenski bildirib ki, münaqişənin tənzimlənməsində ABŞ-la yanaşı Avropa ölkələri də iştirak etməlidir. “Mən Donald Trampla münaqişənin həllinə dair dialoq aparmaq istəyirəm”, - deyə Zelenski əlavə edib. Ukrayna Prezidenti öz mövqeyini Avropa İttifaqının liderləri ilə Kiyevdə görüşü zamanı da səsləndirib.

**Tramp administrasiyası “yox” deyir**

Bəs Ukraynanın NATO-a üzvlüyü nə dərəcədə realdır? Ukraynanın NATO-ya



üzv olmaq ümidləri getdikcə azalır. Rusiya ilə müharibədən əvvəl və müharibə dövründə bu barədə Qərb dövlətləri tərəfindən dəfələrlə vəd verilsə də, yerinə yetirilmir. Bir sıra NATO ölkələri, o cümlədən ABŞ Ukrayna prezidenti Vladimir Zelenskinin müraciətlərinə müsbət cavab verməyə və Rusiya ilə birbaşa münaqişədən çəkinərək Kiyevi dərhal alyansa dəvət etməyə hazır deyil. Konkret olaraq, Tramp administrasiyası Ukraynanın NATO-a üzvlüyünə “yox” deyir. Nəzərə alaq ki, Trampdan əvvəl Bayden administrasiyası Kiyevə milyardlarla dollar həcmində hərbi yardım göstərsə də, NATO-ya üzvlük məsələsində “tələsməməyi” zəruri sayırdı.

**Fidan: Realist olmaq lazımdır**

Bugünlərdə Türkiyənin xarici işlər naziri Hakan Fidan da “Bloomberg”ə müsahibəsində bildirib ki, Kiyevin NATO-ya üzvlük məsələsində realist olmaq lazımdır: “Əvvəlki administrasiyanın da Ukraynanın NATO-ya üzv olmasının tərəfdarı olub-olmamasından əmin deyiləm. Ona görə də bu məsələdə yeni siyasətin olduğunu düşünmürəm”. Onun sözlərinə görə, Ukraynanın NATO-ya mümkün üzvlüklə bağlı avropalı tərəfdaşları və ukraynalı dostları ilə müzakirələrini də başa düşmək lazımdır: “Ukrayna bunu təkcə NATO-ya üzv olmaq üçün deyil, həm də öz ölkəsinin təhlükəsizliyini təmin etmək üçün tələb edir”.

Qeyd edək ki, V.Zelenski hələ ötən il elan etdiyi qələbə planında da Ukraynanın NATO-ya üzvlüyü əsas yer tutur. Lakin Qərbin bu məsələdə Kiyevə dəstəyi vəddən o tərəfə keçməyib. Ukrayna lideri hələ ötən il oktyabrın 17-də qələbə planını təqdim etmək üçün Brüsseldə olarkən Baş katib M.Ruttedən alyansa üzvlüklə bağlı konkret dəstək ala bilməmişdi. M.Rutte də Avropa İttifaqının liderləri kimi onu demişdi ki, Ukrayna gələcəkdə NATO-ya daxil olacaq və alyansın 33-cü və ya 34-cü üzvü olacaq. “Hazırda Ukraynanın 33-cü üzv olacağı görünür”, - deyən Rutte qeyd edib ki, nəzəri olaraq başqa bir ölkə Ukraynadan əvvəl üzv ola bilər. Lakin Ukraynaya vəd verilsə də, hələ namizədlik statusunu da ala bilməyib.

Göründüyü kimi, illər öncə Ukraynaya NATO üzvlüyü vəd edən ABŞ və digər Qərb dövlətləri bu ölkəni Rusiya ilə müharibəyə təhrik etdi. Halbuki NATO-nun nizamnaməsinə əsasən müharibə şəraitində olan ölkə alyansa üzv qəbul oluna bilməz. Yəni, hazırkı şəraitdə Ukraynanın NATO-ya gedən yolu bağlıdır. Artıq Zelenski də anlayır ki, ölkəsini alyansda istəmirlər. O, sadəcə olaraq bu mövqeyi ilə manevrlər etməyə, ölkəsi üçün sərfəli sülh imkanları qazanmağa çalışır.

*N.BAYRAMLI*

# ABŞ-da USAID-i bağlamaq mümkün olacaqmı?

İndiyədək USAID təşkilatının (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) fəaliyyəti ilə bağlı ayrı-ayrı ölkələrdən ardı-arası kəsilməyən narazılıqlar gəlirdi. Qurumun adı işlədiyi ölkələrdə daim siyasi proseslərə açıq və gizli müdaxilə, vətəndaş cəmiyyəti sektorlarının qrantlar müqabilində ələ alınması və onlardan “narazı elektorat” formalaşdırılaraq milli hökumətlərə qarşı istifadə olunmasında, hakimiyyət çevrilişi ssenarilərinin hazırlanıb həyata keçirilməsinə cəhdlərdə və digər belə çirkin əməllərdə hallandırılırdı. Ancaq Bayden-Blinken administrasiyası dünyanın dörd bir tərəfindən gələn narazılıqlara biganə qalaraq qurumun fəaliyyətinin beynəlxalq hüquqa, milli dövlətlərin və ABŞ-ın öz maraqlarına uyğun tənzimlənməsi ilə bağlı hər hansı bir tədbir görməyə tələsmirdi.

### ABŞ-da ifşa olunan USAID

İş elə gətirdi ki, bəzi milli dövlətlər üçün bir növ qara kabus qismində çıxış edən USAID bu dəfə elə ABŞ-ın özündə ifşa olundu. Bu, Ağ Evdə cari ilin yanvarında administrasiyanın dəyişməsindən sonra baş verdi. Yeni Prezident Donald Tramp USAID ilə bağlı narazılığını açıq mətnlə ifadə edib, hətta qurumu korrupsiya, saxtakarlıq əməllərində və digər çirkin işlərdə günahlandırıb. “USAID-ə baxanda görürəm ki, bunların hamısı fırıldaqdır. Bu təşkilatın vəsaitlərinin çox az hissəsi həqiqətən yaxşı məqsədlərə yönəlib. Onun büdcəsindəki hər bənd ya korrupsiya, ya da gülünc bir şeydir”, - deyə Tramp vurğulayıb.

ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin rəhbəri, “Tesla”, “SpaceX” şirkətlərinin və “X” sosial şəbəkəsinin sahibi İlon Mask isə USAID-ə qarşı daha ağır ittihamlar səsləndirib, bu təşkilatı hətta bioloji silah istehsalının maliyyələşdirilməsində ittiham edib. Mask “X” hesabında bu mövzuda bir neçə paylaşım edib və qurumu “cinayətkar təşkilat” adlandırmaqdan belə çəkinməyib.

Yeni administrasiyanın USAID-i hədəfə alması yalnız onun ünvanına sərt ittihamlar səsləndirilməsi ilə məhdudlaşmayıb. Təşkilatın fəaliyyətinin dayandırılması məqsədilə praktiki müstəvidə də ciddi addımlar atılıb. Belə ki, agentliyi radikal sol gündəmin təbliğatını aparmaqda ittiham edən D.Tramp qurumun fəaliyyətinin dayandırılması və strukturunun yenidən qurulması istiqamətində tədbirlər görülməsi ilə bağlı tapşırıqlar verib. Qısa müddətdə təşkilatın əməkdaşlarının sayı 10 000-dən 290 nəfərə qədər azaldılıb. Eyni zamanda, qurumun baş qərargahı ləğv edilib. Həmçinin gələcəkdə bu qəbildən olan tədbirlərin davam etdiriləcəyinin anonsu verilib.

### Beynəlxalq inkişaf adı altında pərdələnən kabus təşkilat

USAID-in əsası 1961-ci ildə qoyulub. Həmin vaxtdan etibarən “demokratiya”, “iqtisadi inkişafa və insan haqlarına dəstək vermək” kimi şüarlar altında pərdələnən qurum özünü dünyaya xoş məramlı bir təşkilat kimi təqdim etməyə çalışıb və müəyyən qədər də buna nail olub. Lakin USAID-in humanizmdən, xeyirxahlıq və inkişaf məqsədlərindən uzaq olduğu, ondan milli dövlətlərə qarşı “yumşaq güc” aləti qismində istifadə edildiyinin aşkarlanması üçün uzun zaman lazım gəlməyib...

USAID-in əli, həmçinin bizim regiona da uzanıb. Qurum region dövlətlərinə aşağıdakı qaydada vəsaitlər ayırıb:

• Gürcüstan: 1,8 milyard dollar,
• Ermənistan: 3,3 milyard dollar,
• Ukrayna: 2022-ci ilə qədər 3 milyard dollar, 2023-cü ildə əlavə 16,6 milyard dollar,
• Moldova: 2,6 milyard dollar.

Ayrılan vəsaitlərin təyinatı müxtəlif ölkələr üçün fərqli olub. Məsələn, qonşu Gürcüstana vəsaitlərin demokratik islahatlar, məhkəmə sisteminin yenidən qurulması və enerji təhlükəsizliyi, Ermənistana əsasən humanitar yardım və vətəndaş cəmiyyətinin gücləndirilməsi, Moldovaya seçki islahatları və Avropaya inteqrasiya prosesinə dəstək üçün ayrıldığı bəyan edilib. Reallıqda isə vəsaitlər tamam fərqli, ölkələrin milli maraqlarına qarşı yönələn məqsədlərə xərclənib. Gürcüstanın, Ukraynanın timsalında bunu aydın şəkildə görmək mümkündür. Ermənistan kimi ölkələrdə isə Amerika vətəndaşlarının vəsaitləri hesabına formalaşan USAID büdcəsinin həm də korrupsiya yeminə çevrildiyi də hər kəsə bəllidir.




### Azərbaycanda USAID-ə yer yoxdur

Qurum 1991-ci ildən etibarən respublikamızda müxtəlif adlar altında təqdim olunan layihələrə 450 milyon ABŞ dollarından artıq vəsait xərcləyib. Hesabatlarda bu vəsaitin media, qeyri-hökumət təşkilatları və iqtisadi islahatlara dəstək üçün ayrıldığı bildirilsə də, USAID-in respublikamızdakı fəaliyyəti bir qayda olaraq qərəzli məzmun kəsb etməsi ilə fərqlənib və zaman-zaman çirkin əməllər ifşa olunub. Məlumdur ki, Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra erməniəsilli sakinlər könüllü olaraq Ermənistana köç etməyə başladılar. Bu zaman USAID dərhal proseslərə müdaxilə etməyə cəhd göstərdi. Qurumun rəhbəri Samanta Pauer Ermənistana səfər etdi, “Qarabağ hadisələrindən zərər çəkənlərə” 4,1 milyon dollardan çox əlavə humanitar yardım ayırdığını bildirdi. O zaman Pauer Azərbaycanın işğaldan azad olunmuş ərazilərində “beynəlxalq müşahidə missiyasının yaradılması” kimi bədnam təşəbbüsü də irəli sürmüşdü.

Azərbaycanda 2012-ci ildə baş tutan “Eurovision” mahnı müsabiqəsi, 2015-ci ildə keçirilən ilk Avropa Oyunları, həmçinin 44 günlük Vətən müharibəsi günlərində, COP29 ərəfəsində beynəlxalq mediada ölkəmizə qarşı aparılan çirkin kampaniyanın da arxasında elə USAID kimi təşkilatlar dayanıb. Eyni zamanda, USAID dəfələrlə respublikamızda yaşanan qarşıdurma və gərginlik cəhdlərinin maliyyə təminatını həyata keçirib.

Belə qərəzli yanaşma hara, qurumun adında ifadə olunan inkişaf hara? Bu cür saxta, riyakar, qərəzli, ermənilərin himayədarı rolunda çıxış edən bir təşkilata Azərbaycanda yer ola bilərmi? Cavab birmənalıdır: Yox! Məhz USAID-in sərgilədiyi qərəzli əməllərinə görə onun respublikamızda fəaliyyəti 2024-cü il iyunun 1-dən etibarən de-yure dayandırılıb. Prezident İlham Əliyev ötən ilin dekabrında rusiyalı jurnalist Dmitri Kiselyova müsahibəsində USAID-lə bağlı tənqidi fikirlər səsləndirib.

### Federal hakimlər dəstəkçi rolunda

USAID-in ifşası ABŞ-ın yeni administrasiyasından gəlsə də, ölkədə qurumun müdafiəsinə qalxanlar da var. Belə ki, ABŞ-ın Kolumbiya Dairəsindəki Dairə Məhkəməsinin hakimi yeni administrasiyanın USAID-in 2700-ə yaxın əməkdaşını işdən çıxarmaq və inzibati məzuniyyətə göndərmək planlarını bloklayıb.

Eyni zamanda, ABŞ-da hökumət işçilərini təmsil edən Həmkarlar İttifaqları USAID-i bağlamaq səylərinə görə yeni administrasiyanı məhkəməyə veriblər. Bu barədə “TheHill” nəşri məlumat yayıb. İddiada xüsusi olaraq USAID-in müstəqil direktor əvəzinin təyin olunması, binaların yenidən açılması, təşkilatın sistemlərinin və internet səhifələrinin, bütün qrant və müqavilələrin bərpası, əlavə işçilərin inzibati məzuniyyətə yerləşdirilməsinə fasilə verilməsi, məzuniyyət bildirişlərinin və məcburi evakuasiya əmrlərinin geri çağırılması kimi tələblər yer alır.

Bu kimi reallıqlardan hasil olan qənaət ondan ibarətdir ki, ABŞ cəmiyyətində və hakim dairələrində USAID-in uzantıları var. Belə görünür ki, indi həmin uzantılar təşkilatı müdafiə etmək üçün yeni administrasiyaya qarşı müqavimət hərəkatı formalaşdırmağa çalışırlar. Baş verənlər fonunda məntiqi sual yaranır: Yeni administrasiya ABŞ üçün üzqarası, milli dövlətlər üçün qara kabus olan USAID-i tam şəkildə bağlamağa nail olacaqmı?

*Mübariz ABDULLAYEV*

# ABŞ 55 illik strategiyaya geri qayıdır...

## Niksondan başlayan yolun estafetini Tramp ələ alır

## Plan açıqlandı: Əsas hədəf Çin-Rusiya müttəfiqliyidir

Son bir neçə ayda beynəlxalq münasibətlər sistemində "oyun qaydaları" aktiv şəkildə dəyişməkdədir. İllərdir ki, şahidlik etdiyimiz ənənəvi "Qərb koalisiyası" artıq süqutunu elan edir. ABŞ ilə Aİ arasında yaranan uçurum get-gedə artmaqdadır. Bunun əksinə, Tramp administrasiyasının Kreml ilə yaxınlaşması, hətta Qərbin "Ukrayna maraqlarının" ikitərəfli münasibətlərə qurban verilməsi hər kəs tərəfindən təəccüblə qarşılanır - necə olur ki, ABŞ özünün son bir neçə illik strategiyasını, prioritetlərini bir kənara qoyaraq Moskva ilə daha isti əlaqələrə üstünlük verir. Ər-Riyadda keçirilən görüşün ən yaddaqalan mahiyyəti də məhz iki ölkə arasında iqtisadi münasibətlərin yeni mərhələsinin formalaşdırılmasına "hazırlıq məşqi" sayılır.

Amma bu heç də qəribə deyil - bu, ənənəvi ABŞ dövlət strategiyasının fərqli "yola" əsaslanan tezisidir. Bir neçə gün öncə İTV-də yayımlanan "Aydınlıq" müəllif verlişində politoloq Eldar Namazov bununla bağlı maraqlı fikirlər səsləndirib. E.Namazov deyib ki, Bayden administrasiyası Rusiya-Ukrayna müharibəsini iki qütb arasında qarşıdurmanın bir hisəsi hesab etsə də, Trampın məsələyə baxışı fərqlidir. Bayden düşünürdü ki, müharibəni uzatmaq, Rusiyanı zəiflətmək Qərbin xeyrinədir - ona görə də müharibəni dayandırmaq istəmirdi: "Tramp üçün isə bu müharibə Qərb-Rusiya deyil, ABŞ - Çin qarşıdurmasının bir parçası kimi xarakterizə olunur. Trampın əsas rəqibi Çindir və bütünlüklə strategiyası da gələcəkdə Çinlə potensial toqquşmadan qalib ayrılmaqdır. Bu mənada, ABŞ-ın hazırkı vəziyyəti o qədər də yaxşı deyil - ABŞ Çin ilə rəqabəti uduzur. İldən ilə Çinin iqtisadiyyatı daha yüksək templə inkişaf edir, hətta texnologiya ilə bağlı bəzi sahələrdə də ABŞ-ı ötüb. Hərbi baxımdan da Çinin çox böyük potensialı var. Çin yaxın gələcəkdə, təxminən 5-10 ilə nüvə potensialını da ABŞ-a qarşı uyğunlaşdıracaq. Bunu ABŞ siyasətçiləri də Tramp da görür. Tramp deyir ki, mənim ən böyük rəqibim Çindir".

E.Namazov deyib ki, Tramp Çinlə mübarizədə ona mane olan bütün hər şeydən yaxasını qurtarmağa çalışır ki, bunların da biri Ukrayna müharibəsidir. Çünki bu müharibə həm vaxt, həm də maliyyə itkisidir: "Eyni zamanda, bu muharibə Rusiya ilə Çin arasında ittifaq formalaşdırır. O ittifaq isə Çini daha da gücləndirir. Bu nöqtəyə daha diqqətlə yanaşaq. Çin-ABŞ-Rusiya üçbucağı tarixi bir problemdir. Hələ keçən əsrin 70-ci illərində ABŞ siyasətçiləri bildirirdilər ki, dünyanın taleyini gələcəkdə üç dövlət, SSRİ-ABŞ-Çin həll edəcək. Həmin vaxt əsas hədəf SSRİ ilə Çinin birgə əməkdaşlığına mane olmaq idi. Onlar birləşsəydilər, ABŞ uduzacaqdı. Hələ 1970-ci illərdə ABŞ prezidenti Niksonun Çinə səfəri və Mao Tszedunla görüşü çox böyük sensasiyaya səbəb olmuşdu - təqribən indiki Tramp-Putin münasibətləri kimi.

## Eldar Namazov: Çin-ABŞ-Rusiya üçbucağı tarixi bir problemdir...

Çünki bundan az əvvəl ABŞ ilə Çin Koreyada üz-üzə dayanmışdı. Birdən birə Nikson hakimiyyəti dövründə ABŞ-Çin münasibətləri yaxınlaşdı. Ondan sonra bütün ABŞ prezidentləri bir qaydaya riayət edirdilər - ABŞ diplomatiyasının qızıl qaydası SSRİ ilə Çinin birləşməsinə imkan verməmək idi. ABŞ buna nail oldu, Çinlə yaxınlaşdı və bunun nəticəsində SSRİ "Soyuq müharibə"ni uduzdu. Bu qızıl etalon ABŞ diplomatiyasının 50 illik qanunudur. Tramp bu gün dediyi də məhz həmin məsələdir ki, Bayden bu qanunauyğunluğu pozub. Bayden elə bir şərait yaratdı ki, Çin ilə Rusiya yaxınlaşdı. Hazırda Tramp Rusiya ilə münasibət qurub onu Çindən uzaqlaşdırmaq istəyir və bu da ABŞ-ın ənənəvi strategiyasıdır".





Qeyd edildiyi kimi, II Dünya müharibəsindən sonra dünyanın iki siyasi qütbə bölünməsi ilə başlanan soyuq müharibə sonda "tək qütb" formalaşdırmalı idi. Bu, ya kapitalist dünyasının lideri ABŞ, ya da sosialist rejiminin əsas dayağı SSRİ olmalı idi. SSRİ-nin sosialist qrupunun arxasında ən mühüm amillərdən biri - əhali çoxluğuna malik olan birlik dayanırdı. ABŞ ilkin növbədə özünün siyasi kursunu SSRİ ilə Çin arasında ixtilaf yaratmağa fokusladı - yenə də sərhəd məsələsi "ən böyük təhlükə" kimi vurğulanırdı. Qeyd edək ki, SSRİ ilə Çin arasındakı sərhəd ixtilafları 1950-ci illərin sonlarında başlamışdır. 1962-ci ilin mayında təxmini olaraq 60.000 uyğurun iqtisadi səbəblərlə əlaqədar olaraq SSRİ sərhədindən Sovet İttifaqına görə isə Çin o dövrdəki torpaqları haqsız olaraq ilhaq etmişdi. Çin bağlanacaq müqaviləyə görə Tacikistanın şərqindəki təxmini olaraq 52.000 kvadrat kilometr bir sahəni istəyirdi.

İlk döyüş 2 mart 1969-cu ildə Çin ordusuna bağlı bir qrup əsgərin şərqdəki münaqişənin əsas səbəbi olan Zhenbao adasında SSRİ-yə bağlı olan sərhəd keşikçilərini pusquya salması ilə başladı. Bunun özünə qarşı təcavüz kimi qiymətləndirən SSRİ 15 mart 1969-cu ildə Ussuri çayı və Zhenbao adasındakı Çin hərbi birliklərini bombardman etdi. 16 martda Çin ordusu adanı ələ keçirmiş SSRİ qüvvələrinə qarşı əks-hücuma başladı. 18 martda Çin birlikləri ağır itkilər verdi və SSRİ qüvvələri tərəfindən Zhenbao adasından uzaqlaşdırıldı. Şərqlə paralel Qərbdə də Sincanda da iki ölkə arasında döyüşlər davam edirdi. Artan gərginliklər SSRİ ilə Çin arasında nüvə müharibəsi ehtimalını ortaya çıxardı. Dövrün iki kommunist nəhəngi arasında potensial nüvə müharibəsi təhlükəsinə qarşı ABŞ və Qərb dövlətlərinin vasitəsilə diplomatik yollar tapıldı. Nəhayət, 1980-ci illərdə Qorbaçov hakimiyyətə gəldikdən sonra SSRİ xarici si-

## Çin SSRİ-yə necə "düşmən" oldu?

Çinin Sintszyan-Uyğur Muxtar Rayonuna köçməsi dövrün Çin mediası tərəfindən təbliğat vasitəsinə çevrilmişdi və bununla əlaqədar olaraq iki ölkə arasında gərginlik getdikcə artmışdı. Bu hadisədən dərhal sonra Çin ilə SSRİ arasında heç cür həll edilə bilinməyən sərhəd məsələlərinin həlli ilə bağlı görüşlər başladı. Görüşlərdə Çin Tzin sülaləsi ilə Çar Rusiyası arasındakı XIX əsrdəki sərhədlər daxilinə qayıtmağı təklif etdi - yasətində dəyişikliklər edildi - O, Çinlə münasibətlərin yaxşılaşdırılması üçün Çinə düşmən olan Vyetnamı dəstəkləməyə son qoydu və Əfqanıstandan qoşunların çıxarılması göstərişini verdi. 1989-cu ildə Qorbaçovun Pekin səfəri baş tutdu və bu səfər münasibətlərin tam bərpa olunmasına gətirib çıxardı. Amma artıq gec idi - SSRİ-nin dağılma planı masa üzərində, kapitalist qütbünün ön plana keçməsi isə an məsələsi idi.

## Pekindən sonra hədəf Moskva olacaq?

Belə demək mümkündürsə, 35 ildən sonra proseslər təxminən eyni məcrada, fərqli assosasiya ilə yenidən cərəyan edir. Yenə Rusiya ilə Çin arasında cənub sərhədləri ilə bağlı problemlər "cücərdilir". ABŞ bu dəfə Kremllə yaxınlaşmanı hədəfləyir. Amma növbəti mərhələdə, yəni, Çinə qarşı təxmin edilən "qalibiyyətdən" sonra Ağ Evin hədəfinin Moskva olmayacağına da qarantiya verilmir...

***P.SADAYOĞLU***

# ABŞ niyə BMT-ni tərk etmək istəyir?

## Aydın Quliyev: Yeni dünya düzəninin konsepsiyası verilmədən BMT-ni dağıtmaq "düzəndən xaosa" keçidə bənzəyəcək

Dünyanın ən böyük təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı beynəlxalq münasibətlər sistemində baş verən proseslərə adekvat reaksiya verə bilmir. Bu səbəbdən də, bir sıra dövlətlər təşkilatda köklü islahatların aparılmasına dair çağırışlar edirlər. Belə bir şəraitdə dünyanın ən böyük ölkələrindən biri və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan ABŞ qurumu tərk edə bilər.



Artıq ABŞ Konqresində ölkənin BMT-ni tərk etməsi üçün praktiki addımlar atılır. Respublikaçı senatorlar ABŞ-ın BMT-dən tamamilə çıxması haqqında qanun layihəsi təqdim ediblər. Bu barədə layihə müəlliflərindən biri olan Mayk Linin saytında dərc olunmuş sənədin mətnində deyilir. Layihədə qeyd olunur ki, Prezident Birləşmiş Millətlər Təşkilatına və ona rəsmi şəkildə bağlı olan bütün orqanlara, ixtisaslaşmış qurumlara, komissiyalara və digər orqanlara üzvlüyünü ləğv etməlidir. Qanun layihəsi BMT və onun agentlikləri üçün maliyyənin kəsilməsini, ölkənin təşkilatın sülhməramlı missiyalarında iştirakdan imtinasını, Senatın razılığı olmadan ona yenidən daxil olmağın qadağan edilməsini nəzərdə tutur.

Senator Mayk Li "Fox" telekanalına deyib ki, təşkilat "ABŞ və onun müttəfiqlərinə hücum etmək" üçün "tiranların platformasına" çevrilib. O, "Vaşinqtonun maraqlarını zərbə altında qoyan, Birləşmiş Ştatların əleyhdarlarını gücləndirmək üçün pul xərcləyən BMT"-nin maliyyələşdirilməsinə son qoymağa çağırıb. Mayk Li, həmçinin BMT-nin bu illər ərzində bütün diqqət və pula baxmayaraq, müharibələrin, insan hüquqlarının pozulmasının və pandemiyaların qarşısını ala bilmədiyini də vurğulayıb.

Bəs ABŞ konqresmenlərinin BMT barədə mövqeyi nə dərəcədə əsaslıdır? Təşkilatın böhranlı vəziyyətə düşməsində hansı amillərin rolu var? Məsələ ilə bağlı "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev bildirib ki, bir qrup Amerika senatoru fikirlərini BMT-nin heç bir iş görməməsi, münaqişələrin qarşısını ala bilməməsi və ABŞ-ın bu quruma havayı pul xərcləməsi ilə əsaslandırır. Senatorların məntiqinə görə heç bir səmərəli iş görməyən təşkilatı ABŞ niyə maliyyələşdirsin?! "Senatorların bu sualından əvvəl başqa sual da var. Bəs BMT-ni bu günə kim qoydu? Senatorların yazdığı kimi "dağılmamışdan əvvəl onu dağlar günə kim qoydu?". BMT Təhlükəsizlik Şurasının Yaxın Şərq probleminin həlli üçün "iki dövlət" prinsipini əks etdirən qətnamələri 70 ildən çoxdur niyə icra olunmur? Ermənistanın təcavüzünə qarşı BMT TŞ-nin qəbul etdiyi 4 qətnamının 30 ildə icra edilməsi üçün Amerika hansı prinsipiallığı göstərdi? Əksinə, qətnamələrin icrasına daim mane oldu",-deyən A.Quliyevin fikrincə, bəzi hallarda ABŞ BMT TŞ-nin qəbul etdiyi qətnamələrin heç mürəkkəbi qurumamış icra etdi. Məsələn, 1990-cı illərdə Serbiyada, 2002-ci ildə Əfqanıstanda, 2003-cü ildə İraqda, 2011-ci ildə isə Liviyada olduğu kimi. Başqa hallarda isə BMT öz qətnamələrinin icrasına "ortası qırılmış ilan" kimi reaksiya verdi. ABŞ və BMT TŞ-də veto hüquqlu başqa ölkələr də buna susdular.

"BMT-nin müstəmləkəçilikdən azad olunmalı xalqlarla bağlı xüsusi komitəsinin işinə mane olanların biri ABŞ deyil? Çünki hələ də müstəmləkə saxlayanlar Fransadır, Hollandiyadır - yəni ABŞ-ın NATO üzrə müttəfiqləridir",-deyən siyasi şərhçi illərdir BMT sistemində islahatlarla bağlı çağırışların olduğunu xatırladıb. Onun sözlərinə görə, Azərbaycan Prezidenti də BMT strukturlarında konkret islahatların zəruriliyini bəyan edib: "İslahat prosesinə real olaraq niyə start verilmir? Niyə TŞ qətnamələrinin taleyi 5 daimi üzv dövlətin əlində qalmalıdır? Daimi üzvlərin veto hüququ niyə də məhdudlaşdırılmasın? Veto hüququna malik ölkələrin sayı niyə türk dünyasının və Qoşulmama Hərəkatının hesabına genişləndirilməsin? BMT qərarlarının icrasında ikili standartlara niyə son qoyulmasın? Məntiq və dünyadakı real vəziyyət tələb edir ki, bunlar baş versin. Ancaq bütün bunlar ABŞ-a sərf etmir, onun həlledici səs monopoliyasına başqa şərik çıxanlar olmasın deyə. Bütün bunlar o deməkdir ki, senatorların müraciəti BMT-nin dağıdılmasında ABŞ-ın məsuliyyətini gizlətmək cəhdindən başqa bir şey deyil".

A.Quliyev qeyd edib ki, BMT-dən çıxmaq yox, onu dərindən islah etmək lazımdır. "Yeni dünya düzəninin konsepsiyası verilmədən BMT-ni dağıtmaq "düzəndən xaosa" keçidə bənzəyəcək və bunun bütün məsuliyyəti ABŞ-ın üzərində qalacaq",-deyə baş redaktor vurğulayıb.

***Nardar BAYRAMLI***

# Üçüncü ildönümündə...

## Aİ liderləri Ukraynaya hansı təkliflə gəliblər?

Dünən Aİ-nin liderləri - Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen, Skandinaviya ölkələrinin və İspaniyanın baş nazirləri, o cümlədən Kanadanın baş naziri Castin Trüdo Ukraynaya rəsmi səfər ediblər. Onların bu səfəri Rusiya-Ukrayna müharibəsinin üçüncü ildönümünə təsadüf edir.

ABŞ-ın Ukrayna ilə bağlı siyasətində ciddi dəyişikliklərin baş verməsi, xüsusilə bu yaxınlarda Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda ABŞ və Rusiyanın nümayəndələri arasında görüşün keçirilməsi və Ukrayna münaqişəsinin nizamlanması üzrə ABŞ-Rusiya danışıqlar prosesinə Aİ-nin dəvət olunmaması Avropada çox ciddi narahatlıq yaradıb. Bu səbəbdən fevralın 17 və 19-da Parisdə Aİ, NATO, Kanada və Avropa ölkələrinin liderlərinin iştirakı ilə iki görüş keçirilib.

Qeyd edək ki, martın 6-da Avropa İttifaqının 27 ölkəsinin liderlərinin Brüsseldə növbədənkənar sammiti baş tutacaq - bu sammitdə Ukrayna və Avropanın təhlükəsizliyi ilə bağlı bir çox məsələlərin müzakirə olunacağı gözlənilir. Avropa İttifaqı Şurasının prezidenti A.Koşta öz "X" hesabında vurğulayıb ki, bu sammit Ukrayna və Aİ-nin təhlükəsizliyinin təminatı istiqamətində zəruri addımların atılması üçün nəzərdə tutulub.

Bu arada Aİ-nin xarici işlər nazirləri Ukraynada müharibənin 3-cü ildönümü ilə əlaqədar Rusiyaya qarşı 16-cı sanksiyalar paketini təsdiqləyib - Rusiyanın 13 bankına, eləcə də 35 şirkətinə və 48 fiziki şəxsinə qarşı qadağalar tətbiq olunacaq. Bundan başqa, Aİ-nin üzv ölkələrinin Rusiyadan xrom və bəzi kimyəvi maddələri idxal etməsinə, həmçinin Rusiyanın neft və qaz emalı zavodları ilə əməkdaşlıq etməsinə qadağa qoyulacaq.

Maraqlıdır, görəsən, Aİ-nin liderləri Ukrayna Prezidenti Volodimir Zelenski ilə hansı məsələləri müzakirə edəcəklər? Yaxın zamanda Aİ Ukrayna ilə münasibətlərdə hansı addımları atacaq? Aİ-nin Brüsseldəki növbəti sammitində Ukrayna ilə bağlı hansı həlledici qərarların veriləcəyi gözlənilir?

## Səfərin məqsədi...

Məsələ ilə bağlı politoloq Tural İsmayilov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Aİ-nin liderləri ABŞ Prezidenti Donald Trampın Ukraynaya sərgilədiyi münasibətindən narazıdırlar. "Bu gün ABŞ-ın həm Ukraynaya qarşı maliyyə məsələsində atdığı addımlar, həm də Rusiya-Ukrayna müharibəsinin sona çatması üçün Moskva ilə təmaslar qurması Aİ-nin liderləri tərəfindən birmənalı qarşılanmır - onlar Trampın bu siyasətini həzm edə bilmirlər. Açıq-aydın görünür ki, Avropada ciddi narazılıqlar mövcuddur. Hələ də Qərb imperalizmi təfəkküründə olan Avropadakı müəyyən dairələr Ukraynada münaqişənin davam etməsində maraqlıdırlar. Aİ-nin liderlərinin Ukraynaya səfərində əsas məqsəd ABŞ-ın rəhbərliyi altında əldə olunan razılaşmaları mübahisələndirməkdir. Doğrudur, Zelenskinin özü də Vaşinqtonun siyasətindən narahatlıq keçirir, amma onu da başa düşür ki, Rusiya ilə müharibənin davam etməsi həm maliyyə, həm də insan itkisi baxımından Ukrayna üçün çox ağır nəticələr doğura bilər. Hesab edirəm ki, bu görüşdə Zelenski Aİ-dən fərqli təkliflər gözləyəcək".

## Aİ Ukraynanı meydanda yalnız buraxacaq?



Politoloq vurğulayıb ki, Aİ Ukraynanın mövqeyini gücləndirməyə çalışacaq. Onun sözlərinə görə, Tramp administrasiyası ilə Zelenski hakimiyyəti arasında bəzi məsələlərdə ziddiyyətli mövqelər mövcuddur. "Nəzərə almaq lazımdır ki, yaxın zamanda Avropa İttifaqı Şurası və Avropa Komissiyası Ukraynaya növbəti maliyyə yardımı ilə bağlı mexanizmləri müəyyənləşdirəcəklər. Ukrayna hakimiyyətinin əsas istəyi budur ki, ABŞ-ın vasitəçiliyi ilə Kiyev və Moskva arasında atəşkəs razılaşması əldə edildikdən sonra Aİ-nin Ukraynaya maliyyə yardımları davam etsin. Çünki indidən bəllidir ki, bir müddətdən sonra Vaşinqton Ukraynaya maliyyə yardımını dayandıracaq". T.İsmayilov əlavə edib ki, Aİ-nin Ukraynanı yalnız buraxacağı inandırıcı görünmür: "Düzdür, Avropa İttifaqında elə ölkələr var ki, onlar Aİ-nın büdcəsindən Ukraynaya maliyyə yardımının ayrılmasına qarşıdırlar və bütün yardımların dayandırılmasını istəyirlər. Amma buna baxmayaraq, Aİ Ukraynanı bu məsələdə yalnız buraxmayacaq".

T.İsmayilov bildirib ki, bu sammitdə Ukrayna üçün həlledici qərarlar qəbul edilə bilər: "Aİ-nin sammitində mühüm qərarların qəbul olunması gözləniləndir. Ola bilsin ki, ABŞ-ın Ukraynadakı münaqişənin sona çatması ilə bağlı təkliflərinə qarşı əks arqumentlər irəli sürülsün". Politoloq Aİ-nin bu dəfəki sammitinin çox gərgin keçəcəyini də vurğulayıb: "ABŞ-ın yeni administrasiyası və Aİ-nin beynəlxalq münasibətlərə baxışlarında konseptual fərqlər var - bu da hər iki tərəf arasında ziddiyyətlərin dərinləşməsinə səbəb olur. Bu baxımdan mart sammitində Aİ-nin liderlərinin Ukrayna ilə bağlı yekdil qərarlar qəbul edəcəkləri ehtimal olunur".

***Yunis ABDULLAYEV***

Bizim müsahib

# Biz köhnə cənnətimizə qarşı təhdid hiss etdikdə canlanırıq

## "Mədəni kimliyimiz rus irsinə söykənir. Dini kimliyimiz kimi o da milli kimliyimizi istismar etmək məqsədi güdür"

### Müsahibimiz yazıçı, şair, publisist Aqşin Yeniseydir

**- Aqşin bəy, hazırda nə yazırsız, nə üzərində işləyirsiz?**

- "Ədibin Evi"nin təşəbbüsü və sifarişiylə Bakı nefti haqqında roman üzərində işləyirəm. Araşdırma əsaslı bir romandır, yazmaqdan daha çox oxumaq tələb edir. "Əsrin müqaviləsi"nin 30 illiyinə həsr olunduğu üçün canlı şahidlərlə də söhbətlərim olur. Bakıda yunan-Roma çağından neftin varlığı bilinsə də, Azərbaycanın, əsasən, son iki əsrlik taleyi neftlə bağlıdır, istər cümhuriyyətlər dövrü olsun, istər müstəmləkə. Təəssüf ki, bu cümlədə tarix sözünü deyil, tale sözünü seçməli oldum. Ona görə ki, tale insanın, millətin öz müqəddəratını özü təyin etmədiyi bir varoluş şəklidir. "Əsrin müqaviləsi"ndən sonrakı dövrü çıxmaqla neft həmişə bizə öz rənginə uyğun bir tale yaşadıb. Təsəvvür edin, Azərbaycanın neft mütəxəssisləri Bakıda, dünyanın müxtəlif ölkələrində neft çıxarıblar, yad ölkələri işıqlandırıb, isidiblər, amma böyüdükləri kəndlərdə onları böyüdən valideynləri qışda təzək yandırıb qızınıblar. Mən özüm də neft ölkəsində yaşadığımı Bakıya gələndən sonra hiss etmişəm. Yaxud çar zamanında neftin puluna özümüzə imarət tikmişik, içində rus qubernatoru oturub. Bu taledir, buna tarix demək üçün ağıla yox, piy qatına ehtiyac var. Bacardıqca bu romanı dünya ədəbiyyatının ölçüləriylə yazmağa çalışıram və bu məsələdə Qarabağ müharibəsində qazandığımız qələbənin verdiyi gücü hiss edirəm. Çalışıram ki, heç bir cümlədə Azərbaycan insanı fağır, məzlum obrazda görünməsin. Bu romanda neftin əhvalatı üzərindən xalqın tarix yarada bilən milli kimliyini özünə qaytarmaq istəyirəm. Çünki neftə görə milli kimliyimizin başına çox bəlalar gəlib. Daniel Yerginin kitabında bir epizod var. İran şahı "İndiana" neft şirkətinin rəhbərinə deyir ki, siz də ari irqindənsiniz, biz də. Neft üzərindən irqi yaxınlığa işarə edir. Biz, əksinə, neft üzərindən milli, irqi kimliyimizi önə çıxarmaq əvəzinə, onu rus irsinə söykənən mədəni kimliyimizlə əvəz etmişik. Mədəni kimliyimiz rus irsinə söykənir. Dini kimliyimiz kimi o da milli kimliyimizi istismar etmək məqsədi güdür. Assimilyasiya olan xalqlar öz milli kimliyini mədəni və dini kimliyinə güşəştə gedənlərdir. Neftimizin özünü belə çar Rusiyası dövründən dünyada "rus neft" adıyla məşhurlaşdırıblar. Bunu kimsə bağışlaya bilər, ədəbiyyatın belə bir ixtiyarı yoxdur.

**- Ədəbi mühitimizdə canlanma görürsünüz?**

- Baxır, canlanma dedikdə nə anlamağımıza. Çox vaxt biz vaxtı ötmüş, funksionallığını itirmiş, yaxud heç bir ictimai önəmi olmayan mövzular ətrafında canlanırıq. Bu canlanma da yaratmağa deyil, ən yaxşı halda qorumağa xidmət edir. Orta əsrlərin alimləri belə düşünürdülər ki, onlar özlərindən heç nə yarada bilməzlər. Hər şeyi Avqustin, Aristotel, Vergili kimi nəhənglər deyiblər. Onların işi sələflərinin yaratdıqlarını təqdir və təbliğ etməkdir. Bunu Umerto Eko yazır esselərinin birində. Avropada bu düşüncə Dekarta qədər davam etdi. Ekonun ortaçağ düşüncəsi dediyi bu köhnəpərəstlik bu gün bizim mədəniyyətin bütün sahələrində at oynadır. İctimai fikir budur ki, kimsə özündən Amerika icad edə bilməz, hər şey bizə qədər deyilib, biz, sadəcə, yazılanları təkrar etməli, şair demiş, "tozunu almalıyıq". Bu mədəni silloqomaniyadır. Silloqamaniya psixoloji bir xəstəlikdir: köhnə əşyalarla vidalaşa bilməmək. Kasıblıqdan tutmuş, tənbəlliyə, qənaətcilliyə qədər xeyli səbəbləri var. Amma əsas səbəb köhnə əşyaların öz sahiblərinə verdiyi yaşanmışlıq duyğusunun hüznüdür, psixoloji "komfort zona" sakitliyidir. İnsanlar bu psixoloji sakitliyi, rahatlığı itirməmək üçün köhnə əşyalarından imtina edə bilmir, hətta bəzən evi rəsmən köhnə əşya xarabalığına çevirirlər. Köhnəlmiş dəyərlər, fikirlər, davranışlar və onların xalqa, cəmiyyətə verdiyi yaşanmışlıq duyğusunun psixoloji rahatlığı da xalqın, cəmiyyətin gözünü yeniliyə bağlayır. Fərd öz köhnə pencəyində özünü daha rahat, xoşbəxt hiss etdiyi kimi, toplum da özünün köhnə fikirlərində, köhnə adətlərində özünün cənnət həzzini yaşayır. Bax biz bu köhnə cənnətimizə qarşı təhdid hiss etdikdə canlanırıq. Məsələn, IV Sənaye inqilabı, hətta ölkə başçısı səviyyəsində gündəmə gətiriləndə belə ictimai mühitdən səs çıxmır, niyə, çünki bu, bizim köhnəpərəstliyimizə yad olan bir mövzudur. Ancaq tutalım, mən yazanda ki, "Allahdan başqa Allah yoxdur" çağırışı eramızdan əvvəl 1370-ci ildə Misirdə Aton dininin kahinlərinin çağırışıydı, aləm dəyir bir-birinə. İctimai şüurumuzun mühərriki geriyə doğru daha tez sürət yığa bilir.

**- Hər yazıçı həm də səyahətçi olmalıdırmı sizcə?**

- Səyahət seçiminə görə iki tip yazıçı var; məkanda və zamanda səyahət edən yazıçı. Mən ikinciləri çox oxuyuram. Məkanda səyahət edənlər çox vaxt missionerlər olurlar və yalan-palan şeylər çox yazırlar. Birini deyim sözüm qəribçiliyə düşməsin. XIX əsr Avropa yazıçıları filoloji orientalizmin arxasınca vaxtlarının çoxunu Şərq ölkələrində keçirirdilər və burada gördüklərini bəzəyib-düzəyib hətərən-pətərən mənzərələrlə dolu yazılar yazırdılar. Əlbəttə, hamısı deyil. Onlardan biri də fransız romantizmin banisi, uzun müddət Şərqdə səyahət etmiş Şatobriand idi. Adam "Parisdən Qüdsə səyahət" kitabında bizim haqqımızda yazırdı ki, onlar, yəni şərqlilər azadlıq nədir bilmirlər, sərvətdən başları çıxmır. Onlar gücə sitayiş edirlər. Əgər bir fateh gəlib "səmavi ədaləti" gerçəkləşdirməsə sərkərdəsiz əsgər, kralsız vətəndaş, başsız ailə kimi davranırlar. Dalıyca da yazır ki, onlara azadlığın nə olduğunu biz öyrətməliyik. Avropanın "qaranlıq çağ"ından və onu bu çağdan çıxaran müsəlmanların Əndəlüs xanədanlığından xəbərsiz olsanız, sizə elə gələcək ki, Şatobriand Şərqə gəlmiş yadplanetli bir məsihdir. Şərqin nicatı üçün ona yalvarmalıyıq. Floberin Şərq təsvirləri də meymunla cinsi əlaqədə olan, bütün günü küçələrdə şalvarsız gəzən, sidiyi ilə xəstələrə şəfa paylayan adamların yer aldığı mənzərələrlə doludur. Sanki, Qərbə "Katedrallar əsri" kimi möhtəşəm XIII əsr yaşadan həmin Şərq deyil gəldiyi coğrafiya. Bir də var zamanda səyahət edən yazıçılar, onlar daha çox ictimai yaddaşa, psixoloji dərinliklərə səyahət edirlər. Ədəbiyyatda buna şüuraxını deyirlər. Mənə insanın çölünü deyil, içini araşdırıb göstərən yazıçılar maraqlıdır. Yəni yanmaqdan qorxmayıb quyunun dibinə enən Məlikməmmədlər.

**- Bildiyim qədəriylə dilimizdə nəşr olunmayan bir çox elmi kitabların siyahısını nazirliyə təqdim etmisiniz. Nəticəsi nə oldu?**

- Bu siyahı elmi-kütləvi ədəbiyyat siyahısıdır. Keçən əsrin sonlarından bu günəcən dünyada nəşr olunan və şan qazanan elmi-kütləvi ədəbiyyatdan xəbərsizdir Azərbaycan oxucusu. Ona görə çağdaş mövzularda yeniliklərlə bağlı qərar verməkdə çətinlik çəkir. İnsanımızın ədəbi, intellektual zövqü dünyadan, ən azı, əlli il geri qalır. Bu da ictimai sərmayənin düzgün istiqamətdə xərclənməməsinə yol açır. Məsələn, sosial şəbəkədən istifadə edir, ancaq onun faydalı və ziyanlı tərəflərindən xəbəri yoxdur. Söz və fikir azadlığı dəyərini mənimsəyib, ancaq bu dəyərin artıq bir istismar aləti olduğunu bilmir. Siz ona, tutalım, XXI əsrin fəlsəfəsini yaradan Byunq Çul Xanın kitablarını tərcümə etməsəniz o, bu kitabı iş-işdən keçəndən sonra oxuyanda peşman olacaq. Tərcümə etsəniz, Çul Xan ona izah edəcək ki, neoliberal kapitalizm yaşadığımız cəmiyyəti artıq bir vitrinə çevirib. Sərgi cəmiyyətində yaşayırıq və bu cəmiyyətdə hər bir şey özünün reklam obyektidir. Hər şey özünün sərgi dəyəri ilə ölçülür. Sərgi cəmiyyəti pornoqrafik cəmiyyətdir. Hər şey ifşa edilir, üzə çıxarılır, çılpaqlaşdırılır, özündən soyulur. Sərgiləmə ehtirasının hədsizliyi hər şeyi "bütün sirlərini arındıraraq dərhal istehlak edilən" əmtəəyə çevirir. Kapitalist iqtisadiyyatı hər şeyi nümayiş olunmaq zərurətinə tabe edir. Sosial media bəşəri, milli, fərdi hər cür dəyəri çürüdən bir bazar karnavalıdır. Yalnız sərgilənməyə xidmət edəndir dəyər yaradan, bütün fərdiliklər qurban verilir. Şeylər qaranlıqda yox, həddindən artıq işıqda yox olmağa başlayır. Ümumiyyətlə, görünən şeylər qaranlıqda və ya səssizlikdə yox olmur, onlar görünəndən daha çox görünəndə yox olurlar: lütlənəndə. Bu cəmiyyət lütdür, ona görə poroqrafikdir. Porno təkcə sevgini deyil, seksuallığı da məhv edir. Pornoqrafik sərgiləmə cinsi həzzin yadlaşmasına səbəb olur. Cinsi həzzalmanı qeyri-mümkün edir. Seksuallıq qadının həzz nümayişi və kişinin performans sərgiləməsi şəklində məhv olur. Sərgilənən və göstərmək üçün yaşanan həzz, həzz deyildir. Sərgilənmək və nümayiş etdirmək zərurəti bədənin özünün özünə yadlaşmasına gətirib çıxarır. Bədən optimallaşdırılacaq bir sərgi obyekti kimi əşyalaşır. Belə bədəndə yaşamaq mümkün deyil. Onu nümayiş etdirmək və beləliklə də istismar etmək lazımdır. Sərgiləmək istismarçılıqdır. Sərgiləmək öhdəliyi yaşamaq üçün ehtiyacı aradan qaldırır. Dünyanın özü bir sərgi salonuna çevrilibsə, artıq yaşamaq üçün yer olmaqdan uzaqlaşıb. İnsan diqqət kapitalını artırmaq üçün yaşayış yerini (öz bədənini) reklama qoyur. Yaşamaq demək, ilk növbədə, "dinc olmaq, huzur içində olmaq" deməkdir. Sürəkli sərgiləmək və performans göstərmək məcburiyyətinin daimi təzyiqi bu mənəvi-psixoloji asayişi təhdid edir. Bir az təhrifinə yol verdiyim Çul Xanın bu fikirləri sosial həyatımızın, milli, fərdi dəyərlərimizin nə üçün korlandığı haqqında ən dəqiq diaqnozlardır. Həm Mədəniyyət, həm Təhsil nazirliyinə təqdim etdiyimiz bu siyahı belə zəruri kitabların seriyasıdır. Bu kitabları azsaylı ozucularımız ya rusca oxuyur, ya ingiliscə, ya da Anadolu türkcəsində. Bizə sadəcə, "dilimiz niyə zənginləşmir" sualını verib cavabıyla maraqlanmamaq qalır.

**- Bəs hazırda tərcümə olunan kitabların keyfiyyəti sizi qane edirmi?**

- Tərcümənin keyfiyyətsizliyini dərd etməyə dəyməz. Çünki lazımlı kitabların dilimizə tərcüməsinə çox az rast gəlirik. O kitabları da peşəkarlar tərcümə və redaktə edirlər. Keyfiyyətsiz tərcümələr, əsasən, keyfiyyətiz kitablardır. Axmaqlar üçün yazılan motivasiya kitablarıdır, məsələn, havayı milyonlar və müftə xoşbəxtlik axtaranlar üçün kitabın keyfiyyətinin heç bir əhəmiyyəti yoxdur, əsas məsələ onun xəyal dünyasını illuziyalarla təmin etməkdir. Bu gün keyfiyyətiz kitabların ətrafında keyfiyyətsiz oxucu mühiti formalaşdırıb bazar. Pozitiv cəmiyyət fəlsəfəsinə aid bu kitablar öz oxucularını inandırırlar ki, xoşbəxtlik qondarılan bir şeydir. İnsan xoşbəxt olmaq istəyirsə, onu qondarmalıdır, həm də fasiləsiz qondarmalıdır. Çünki bu gün qondarılmış xoşbəxtlik yalnız bu günü xilas etməyə yetəcək. Çağımız da bu bazar düşüncəsinə uymuş ömrü deyil, günü xilas edən xoşbəxtliklər çağıdır. Bu gün çox az adam bizimlə razılaşar ki, bütün ideologiyalar insan bədbəxtliyinin məhsuludur. Yəhudilik, xristianlıq, islam, kommunizm, feminizim, hətta kapitalizmin və s. kökünə gedin, bəşəri bir çıxılmazlıqla rastlaşacaqsınız. Çıxış yolu çıxılmazlıqda tapılır. Çıxılmazlığı olmayan vəziyyət yaradıcılıq ehtiyacını yox edir. Azadlıq əsarətdən, xoşbəxtlik bədbəxtlikdən çıxış yoluyla əldə edildikdə dəyər qazanır. Azadlıq və xoşbəxtlik günü bəxtəvər etmək niyyətindən doğduqda meşşanlıqdan, özbaşınalıqdan və hedonizmdən başqa bir şey olmur. Qondarmaq yaradıcılıq əziyyətinə qatlaşmaq istəməyənin "yaradıcılığıdır". Pozitiv cəmiyyətdə xoşbəxtlik də çox kəsə və ucuz yollarla qondarılır. Ən yayğını başqalarının xoşbəxtliyini kopyalamaqdır. Dünyagörüşü bu dediklərimdən ibarət olan oxucuya görə narahat olmağa dəyməz. Amma bu demək deyil ki, tərcümə ciddi məsələ deyil. Tərcümə yeganə yaradıcılıq sahəsidir ki, birbaşa praktikada öyrənilir. Yazıçı fantaziyasına güvənə bilər, tərcüməçinin belə bir lüksü yoxdur. Tərcüməçi bircə sözü səhv tərcümə edib əsərin ideyasını şikəst edə bilər. Ona görə də Azərbaycanda yeni, orijinaldan tərcümə edə bilənlərin məktəbini yaratmağa ehtiyac var. Mən Prezidentin Sərəncamıyla nəşr olunan 150 cildilik Dünya Ədəbiyyatı seriyasında redaktorluq edəndə özüm şahid olmuşdum rus dilindən tərcümə olanan əsərlərin necə təhrif edildiyinə. Sovet senzurası dünyaca məşhur yazarların əsərlərindən öz ideologiyasına uyğun gəlməyən yerləri ya çıxarmışdı, ya da təhrif edərək bizə ötürmüşdü.

**- Bu sahədə olan çatışmazlıqları həll etmək üçün Aqşin Yenisey çıxış yolunu nədə görür?**

- 44 günlük müharibə sübut etdi ki, Azərbaycanda zəfər çalmaq üçün hər sahədə yeni ruhlu, yeni düşüncəli xüsusi təyinatlılara ehtiyac var. Tərcümə sahəsində də həmçinin.

**- "Nə qədər ki rus dilli məktəblər var Azərbaycan dili zənginləşməyəcək" fikrinizi paylaşmısınız. Belə çıxır ki, rus dili məktəblərini tamamilə ləğv olunmasının tərəfdarısınız?**

- Dinin, siyasətin, sənətin özünəməxsus məsuliyyətləri olduğu kimi, dilin də özünəməxsus məsuliyyəti var. Sovet sistemində dövlət kommunizmin beş əsas prinsipindən birinə, uşaqların ictimai nəzarətdə böyüdülməsinə uyğun olaraq, uşaqlara öz valideynlərindən daha böyük qayğı göstərirdi; uşaqpulu və pulsuz təhsil verir, böyüdür, oxudur, vaxtı çatanda evlə, işlə, təmin edirdi. Çünki bolşeviklər anlayırdılar ki, yeni bir insan növü yetişdirməsələr, sistem işləməyəcək və dağılacaq. Və bu insan bəşərə qarşı olmalıydı. Valideyn uşaq böyütmək, oxutdurmaq, evlə, işlə təmin etmək məsuliyyətindən azad idi. Uşağın gələcək həyatı Moskvadan, eyni zamanda, rus dilindən asılı idi. İnsanların taleyinə rus dili məsuliyyət daşıyırdı. Azərbaycan (türk) dili elmi, fəlsəfi, texniki, ictimai məsuliyyəti əlindən alınmış xeyir-şər diliydi, ona uşaq etibar etmək olmazdı. Bu dilin heç bir tarixi, ictimai məsuliyyəti yox idi. Ana dilinin insan böyütmək məsuliyyəti inzibati müdaxilələrlə rus dilinin üzərinə qoyulmuşdu. Rus dilində təhsil almamaq gələcəksiz qalmaq demək idi. Bu gün uşaqlarını rus bölməsinə qoyan valideynlər də bolşevik sələfləri kimi valideynlik məsuliyyətini rus dilinin üzərinə atırlar. İdeoloji inanca görə, bu dil uşağı öz doğma valideynlərindən daha yaxşı tərbiyə edir, onlara daha çox bilgi verir, daha elit iş yerləri vəd edir. Azərbaycan (türk) dili yenə də heç bir ictimai məsuliyyəti olmayan bir dil statusundadır. Dövlət dilidir, amma vətəndaş öz gələcəyini, özünü ona etibar etmir. Bu dil Azərbaycan vətəndaşına ancaq şeir yazmaq, meyxana demək, linç etmək, pafos püskürmək üçün lazımdır. Ana dilimiz Azərbaycan vətəndaşı qarşısında heç bir ictimai məsuliyyət daşımır. Ona gələcəyi ilə bağlı heç nə vəd etmir. Buna görə də valideynlər daha məsuliyyətli dillərə üz tuturlar; ya Anadolu türkcəsinə, ya rus, ya ingilis dilinə. Dilimizin ictimai, elmi, fəlsəfi, texniki məsuliyyətləri özünə qaytırılmayana qədər biz öz ölkəmizdə başqa millətlər üçün övlad böyüdəcəyik. Eynən öz yuvasında öz balasından daha gözəl olan qu quşunun balasını böyüdən çöl ördəyi kimi. Müstəmləkə hərblə gəlir, dillə yerləşir. Bu müstəmləkə siyasətini hollandlar İndoneziyada, fransızlar Əlcəzairdə, ingilislər Misirdə tətbiq etdilər və öz müstəmləkələrində ana dilində danışmağı özünə ar bilən elit kəsimlər və onları anlamayan savadsız bir xalq miras qoydular. Eyni müstəmləkə fəlakəti bizim xalqın da başına gətirilib dil vasitəsilə. Dil nə zaman zənginləşmək ehtiyacı hiss edir? Vətəndaşının elmi, fəlsəfi, texniki inkişafını təmin edib dünyayla ayaqlaşması məsuluyyətini hiss etdikdə. Rus bolşeviklər dilimizi bu məsuliyyətlərdən azad etdiyi üçün dilimiz məhkum olduğu folklorik, məişət səviyyəsindən artıq özü üçün bir "komfort zona" düzəldib. Qəbul etdiyimiz "müstəqillik akt"ının dilimizə dəxli yoxdur hələ ki.



**- Ayaz Salayev isə deyir ki, Azərbaycan dili üçün rus dili deyil, türk dili təhlükəlidir.**

- Türk dilinin türk dilinə təhlükə yaratdığını söyləmək üçün çox bərbad bir dünyagörüşünə sahib olmaq lazımdır. 1918-ci ildəki parlament qərarına qədər Azərbaycan dili deyilən dilmi vardı? Birinci Cümhuriyyətin rəsmi orqanı olan "Azərbaycan" qəzetininin dilinə baxın, ortaq türkcə dediyimiz bir türk dilidir bu rəsmi qəzetin dili. Keçən əsrin əvvəlində dilimizdə iki istiqamət vardı, xəlqi dili əsas götürən "mollanəsrəddinçilər" və intellektual dilə söykənən "füyuzatçılar". Birinci cümhuriyyətin dili "füyuzatçıların" diliydi. Bolşeviklər proletar zümrədən gəlirdilər deyə xəlqi dili qorudular, bu dilin heç bir elmi, fəlsəfi, texniki imkanları yox idi. Bu dildə ancaq deyinmək və laqqıtı vurmaq olardı. Bizi deyingənliyə və laqqırtıya meyilli bir dünyagörüşünə sahib cəmiyyət edən də yüz il əvvəlki dil seçimimizdir. Kommunizm özü də xalqçılığa əsaslanan folklorik bir ideologiyaydı. Ona özünü yaymaq üçün proletariatın anlayacağı dil lazım idi. Stalin buna görə dili "təmizlətdirirdi", xəlqiləşdirdi. Əhməd bəy Ağaoğlunun, Əli bəy Hüseynzadənin dilini Novruzəlinin diliylə əvəzlətdirdi. Salayevə gəlincə, Svayq yazır ki, Spinozadan Voltera və daha sonrakılara qədər uzanan Avropa aydınları Rotterdamlı Erazmın mənəvi nəsilləri idi. "Mənəvi nəsil" çox önəmli bir ifadədir. Millətin xarakterini nəsillərin hansı mənəviyyatı bir-birilərinə ötürdüyü təyin edir. Bizdə yaxın tarixdə bu ötürülmə prosesində bir dəfə çar Rusiyası zamanı qopuqluq yaşanıb, bir dəfə də sovet Rusiyası zamanı. Çar bizi min illik Şərq mədəniyyətindən ayırıb Şərqə qarşı qoyub. Sovet Rusiyası isə bizi, ümumiyyətlə, bəşəri dəyərlərdən ayırıb üzərimizdə bolşevizm təcrübəsi həyata keçirib. Bizim indki nəsillər bu son təcrübənin, bolşevik eksperimentin davamçılarıdır. Yəni bizim Rotterdamlı Erazmımız Stalindir. Biz Kobanın mənəvi yolunu davam etdiririk, həm də ayrı-ayrı şəxslər olaraq yox, bir toplum, bir cəmiyyət, bir kollektiv şüur olaraq. İnzibatçı bir mənəviyyatın yetirmələri və davamçılarıyıq. İnsaniliyimizi belə inzibati dəyərlərlə ölçürük. Tük dilini Stalin də təhlükəli hesab edirdi, Salayev də təhlükəli hesab edir. Bundan daha aydın nə deyə bilərəm.

**-Son günlər yazıçılarla müsahibələrin 99 faizində bu sual var. Gəlin elə sizdən də soruşaq. Səməd Vurğunun ünvanına söylənən fikir hücumlarına münasibətiniz nədir?**

- Mən şəxslərin deyil, anlayışların, dəyərlərin müzakirə olunmasının tərəfdarıyam. Müzakirə mövzularımın arasında şəxs adları yoxdur. Xalqın bağrından qopan ilhamlı bir şairdən Səməd Vurğun düzəldən anlayışlardan sual versəydiniz, səhərəcən danışardım.

**Müsahibəni aldı:**
***Havar Şəfiyeva***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Baharın ilk müjdəçisi...

**Bu gün Novruzun ilk çərşənbəsi qeyd olunur. Belə ki, fevralın 25-də ilk - Su çərşənbəsi, martın 4-də Od, martın 11-də Yel, martın 18-də isə İlaxır çərşənbə - Torpaq çərşənbəsi olacaq. Azərbaycana yaz fəslinin daxil olması isə martın 20-si Bakı vaxtı ilə saat 13:01:25-ə təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşir və Günəş Şərqdə doğub, Qərbdə batır. Xalqımız Novruz ərəfəsində çərşənbələrə böyük önəm verir. Çərşənbələrin ardıcıllığı xalqımızın keçmişindən qaynaqlanır. Bu çərşənbələr insanın 4 ünsürdən yaradılması ilə bağlı dini-mifik görüşləri simvollaşdırır. Novruzqabağı qeyd olunan dörd çərşənbə mərasimlərin, ayinlərin zənginliyi ilə seçilir. Bu mərasimlərin həyata keçirilməsi Novruzun əsas ünsürü olan Su çərşənbəsi ilə başlayır.**

## Çərşənbələrin əzəli və gözəli

Su çərşənbəsi xalq arasında “Əzəl çərşənbə”, “Gözəl çərşənbə”, “Sular Novruzu”, “Gül çərşənbə” kimi də tanınır.

Mifik mətnlərdə su həyat, dirilik mənbəyi, xoşbəxtlik gətirən müqəddəs inam obyekti kimi göstərilib. İnanca görə, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə də su ilk çərşənbə kimi qeyd olunur. Su çərşənbəsində suyun müqəddəsliyi ifadə edilir. Su çərşənbəsində su hövzələrində abadlıq işləri görülür, arxlar qaydaya salınır. Bayrama hazırlıqlar bu çərşənbə ilə başlayır. Su çərşənbəsində su ilə bağlı müxtəlif şənliklər keçirilir.

## Su çərşənbəsində keçirilən mərasimlər



Su həyat mənbəyi, aydınlıq rəmzi sayılır. Bu çərşənbədə su üstündə müxtəlif mərasimlər keçirilir. Türk mifologiyasında suyun müqəddəsliyi ilə bağlı bir çox mətnlər möcvuddur. İnanırlar ki, qorxulu yuxuların suya danışılması ilə insanı izləyən qəzaların dəf olunması mümkündür.

Su çərşənbəsi ərəfəsində, adətən, hər kəs öz ev-eşiyini sahmana salır, divarlar rənglənir, bağ-bağçalarda ağacların, gül kollarının dibi bellənir, qurumuş və artıq zoğlar kəsilir.

Su çərşənbəsi suya tapınma ilə başlayır. Su üstündən atlanmaq, arzularını, diləklərini suya danışmaq, sübh tezdən evə bulaq suyu gətirmək və başqa ayinlər həmin gün icra olunur. İnanca görə, Novruzun ilk çərşənbəsində su təzələnir. Həmin gün sübh tezdən bulaqdan götürülən su şəfalı hesab edilir. İnanırlar ki, Su çərşənbəsi günü “təzə su”dan keçənlər, azarını, bezarını ona verənlər ilboyu xəstəlikdən uzaq olarlar.

Su çərşənbəsində qadınlar, qızlar su fallarına baxırlar. Həmin gecə subay qızlar bir evə yığışırlar. Bu mərasimi icra etmək üçün axar sudan - bulaqdan, yaxud çaydan əvvəlcədən su götürülür. Su şər qarışandan sonra gətirilir. Falda istifadə olunan suya “lal su” deyirlər. Bu suyu gətirməyə bir və ya bir neçə nəfər gedir. Suyu gətirən qabı əlinə götürəndən sonra suyu gətirib evdə su falına baxılacaq qaba tökənədək danışmamalıdır. Əks halda həmin su ilə fal açmaq doğru sayılmır. Buna görə də həmin suya “lal su” deyirlər.

Üzüklə su falını icra etmək üçün bir fincan, nişan üzüyü və bir saç teli götürülür. Fincanın yarısınadək “lal su” tökülür. Nişanlı qızlardan birinin qızıl üzüyünü falına baxılacaq subay qızlardan biri saçından ayırdığı telə keçirir, içi su ilə dolu qaba salır. Ürəyində niyyət tutub üzüyü fincana yaxınlaşdırır. Üzük fırlanmağa başlayır və fincanın divarlarına dəyir. Üzük hər dəfə fincanın kənarlarına dəydikcə, sayırlar. Say neçə olursa, niyyət tutan subay qıza o yaşda gəlin gedəcəyini bildirirlər.

Su çərşənbəsini əbəs yerə Novruz çərşənbələrinin gözəli adlandırmayıblar. Bu çərşənbədə yuxuda su görmək, dəryada üzmək, dənizə düşmək, çaydan keçmək, ümmanlarda qərq olmaq aydınlıqdır. Ömrünüz su qədər saf, təmiz və aydınlıq içində keçsin!

*Yeganə BAYRAMOVA*



# “Nar” “Böyük Qayıdış” mövzusunda rəsm müsabiqəsi keçirib

Sərfəli rabitə xidmətləri ilə tanınan “Nar” Füzuli şəhərində, Mirzə Uluqbəy adına 1 saylı orta məktəbin şagirdləri arasında “Böyük Qayıdış” mövzusunda rəsm müsabiqəsi keçirib. Şagirdlərin yaratdığı əsərlər məktəbin akt zalında sərgilənib.

Tədbirdə məktəb və “Nar” rəhbərliyi, eləcə də YARAT Müasir İncəsənət Məkanının rəssam-kuratorlarından ibarət heyət iştirak edib. Əməkdar incəsənət xadimi Sabina Şıxlinskaya və məkanın layihə meneceri Leyla Ağayeva əsərləri qiymətləndirərək, gənc müəlliflərə sertifikatlar təqdim ediblər.

Şagirdlərin istedadını rəqəmsal dünyaya daşımaq məqsədilə, “Nar” müsabiqənin qaliblərinə müasir planşet və smart qələm hədiyyə edib. Bu təşəbbüslə “Nar” regionun mədəni həyatına töhfə verilməsi və yerli icmanın istedadlı gənclərinin dəstəklənməsini hədəfləyir.

“Nar” hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərir. Son 6 ildə Müştəri Loyallığı İndeksi üzrə ölkənin lider mobil operatoru olan “Nar” müştəriyönümlü strategiyasına sadiq qalaraq sərfəli qiymətlərlə üstün xidmət təqdim edir.

**İdman**

## Boksçularımız “Drakula Open” turnirini 9 medalla başa vurublar



Rumıniyada gənc boksçular arasında keçirilən “Drakula Open” beynəlxalq turnirinə yekun vurulub.

Boks Federasiyasından AZƏRTAC-a bildiriblər ki, 23 ölkənin qatıldığı yarışı Azərbaycan millisi 4 qızıl, 1 gümüş və 4 bürünc medalla başa vurub.

Komandanın heyətində Bilalhəbaşi Nəzərov (51 kiloqram) finalda Maksim Maşevskini (Ukrayna) sınağa çəkib. 5:0 (29:28, 29:28, 29:28, 29:28, 29:28) hesabı ilə qalib gələn boksçu birinci yeri tutub.

Zidan Hümbətov (54 kiloqram) ukraynalı Oleksandr Paşiçenkodan güclü olub. O, həlledici görüşdə 3:2 (28:29, 30:27, 28:29, 30:27, 29:28) hesabı ilə qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Sübhan Babayev (57 kiloqram) finalda Stefan Udroiu (Rumıniya) ilə üz-üzə gəlib. Təmsilçimiz rəqibini 4:1 (30:27, 29:28, 29:28, 28:29, 29:28) hesabı ilə məğlub edərək qızıl medala yiyələnib.

Məhəmməd Cəfərov (+92 kiloqram) isə final görüşünün taleyini ilk raundda öz xeyrinə bitirib. Denis Cucuya (Rumıniya) tam üstünlüklə qalib gələn idmançı millimizin qızıl medal sayını 4-ə yüksəldib.

Digər boksçulardan Hikmət Məmmədov (48 kiloqram) gümüş, Baqir Əmirxanlı (60 kiloqram), Abbasqulu Şadlinski (75 kiloqram), Mircəlal Mirağayev (80 kiloqram) və Hüseyn Hüseynli (92 kiloqram) bürünc medal qazanıb.

“Drakula Open”i 9 mükafatla başa vuran Azərbaycan yığması komanda hesabında ikinci olub.

## Abdullah Zubir “Qarabağ”ın tarixinə düşüb



“Qarabağ” Misli Premyer Liqasının 2024/2025-ci illər mövsümündə 60-cı qolunu vurub.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, Qurban Qurbanovun başçılıq etdiyi komanda buna XXIV turun “Sabah”la görüşündə (1:1) nail olub. 60-cı topa Abdullah Zubir imza atıb.

Bununla da “Qarabağ” tarixinin rekordunu təkrarlayıb. Ağdam klubu 2003/2004-cü, 2021/2022-ci və 2023/2024-cü illər mövsümlərində də “60”a 24-cü oyununda çatıb. Ötən mövsümdə bu rəqəm hətta 61-ə yüksəlib.

Azərbaycan çempionatları tarixinin rekordu isə “Kəpəz”ə məxsusdur. Gəncə klubu 1995/1996-cı il mövsümündə 60-cı qolunu 17-ci matçda vurub.

Qeyd edək ki, Misli Premyer Liqasının XXIV turu “Sabah” üçün də ikiqat əlamətdar olub.

Peşəkar Futbol Liqasının rəsmi saytı xəbər verir ki, Bakı klubu ölkə çempionatında 200-cü oyununa çıxıb. Paytaxt təmsilçisi həm də 50-ci heç-heçəsini edib. Paytaxt təmsilçisi 27 dəfə evdə, 23 dəfə səfərdə 1 xal qazanıb. “Sabah” digər qarşılaşmalarda 80 qələbə qazanıb, 70 dəfə məğlub olub.

Qeyd edək ki, ilk görüşünü 2018-ci il avqustun 12-də “Şamaxı”ya qarşı keçirən (1:0) “Sabah” ilk heç-heçəsinə sentyabrın 22-də “Səbail”lə matçda nail olub - 0:0.




# Azercell-in dəstəklədiyi milli komandamız ölkəmizə 9 medal qazandırıb

Azərbaycanın milli komandası 2024-cü ildə İnformatika fənni üzrə beynəlxalq olimpiadalarda yüksək nəticələr nümayiş etdirərək ölkəmizə 9 medal qazandırıb. Şagirdlər nüfuzlu müsabiqələrdə 1 qızıl, 3 gümüş və 5 bürünc medala layiq görülüblər.

Məktəblilərimiz informatika fənni üzrə yarışlara Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Azercell-in 2017-ci ildən etibarən təşkil etdiyi xüsusi təlimlərdə hazırlaşırlar. Eyni zamanda, gənc qızların bu sahəyə marağını artırmaq üçün son üç ildə qızlardan ibarət milli komandamızın da Avropa Qızlar İnformatika Olimpiadasına hazırlığı təşkil edilir. Qeyd edək ki, ötən il Niderlandda baş tutan bu yarışda qızlarımız 2 medal qazanmağa müvəffəq olublar.

Bundan əlavə, tərəfdaşlar yeni nəsil İT/İKT mütəxəssislərinin yetişdirilməsi üçün intensiv təlim düşərgələri də təşkil edib. Təlimlərə Bakı ilə yanaşı respublikanın müxtəlif bölgələrindən fərqli yaş qrupundan şagirdlər qatılıblar. İştirakçılar beynəlxalq olimpiada formatında təşkil olunan bu sessiyalarda alqoritmik məsələləri həll edib, yeni trendlərə dair müzakirələr aparıb və nəzəri biliklərin praktiki tətbiqinə yönəlmiş tapşırıqlar yerinə yetiriblər.

Məktəblilərimiz ötən il Beynəlxalq Jautikov Olimpiadası (Qazaxıstan), Info(1)Cup proqramlaşdırma müsabiqəsi (Rumıniya), İnformatika fənni üzrə beynəlxalq payız turniri (Bolqarıstan), Mərkəzi Avropa İnformatika Olimpiadası (Çexiya), Yeniyetmələrin Avropa İnformatika Olimpiadası (Moldova), Beynəlxalq İnformatika Olimpiadası (Misir), Beynəlxalq Süni Intellekt Olimpiadası (Səudiyyə Ərəbistanı) kimi nüfuzlu yarışlarda iştirak ediblər.

Qeyd edək ki, müxtəlif yaş qrupları üzrə proqramlaşdırma olimpiadalarında Azərbaycan komandası indiyədək ümumilikdə 84 medal qazanıb.

“Azercell Telekom” MMC və şirkətin fəaliyyəti haqqında daha ətraflı məlumat əldə etmək üçün rəsmi Azercell səhifəsinə daxil olun.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4651
Sifariş: 399
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova